# Elvin Məmmədov Rasim oğlu



**"Tələbələrinə elm arzusu arzulamayan bir müəllim soyuq dəmiri döyən dəmirçi kimidir"**
**(Horas Mann)**

Təhsil millətin gələcəyi, elm isə onun baş tacı, bu vacib faktları özündə həyat amalına çevirən insan isə istənilən ölkənin ən vacib kapitalı, yatırımıdır. İnkişaf etmiş ölkələr öncə insan kapitalına, inkişafdan geri qalmış ölkələr isə nəticəsi olmayan və planlaşdırılmayan biznes lahiyələrinə, lazımsız tikililərə və bəhrəsi olmayan digər lahiyələrə yatırım edər. Birincilər udar, ikincilər həmişə ilklərə uduzar. İnsanın mənəvi simasının olması mədəniyyət, təlim - tərbiyə və mənəvi dəyərlərin təsiri altında formalaşması təhsil deməkdir. Bir xalq yalnız savadlı cəmiyyəti, inkişaf etmiş elmi ilə qürur duya bilər. Saxta inkişaf vədləri ilə deyil. Lakin oxuduğuna əməl etməyən alim əlində məşəl gəzdirən kora bənzədiyi kimi bildiyini, öyrəndiyini öyrətməyən ziyalı, müəllim də öz adının ucalığından məhrum olmuş varlıqdır. Onlar gərək öyrədə ki, öyrənmək istəyən gənclik formalaşsın. Və mənimsədikləri biliklə, elmlə yeni idealar, yeni təfəkkürlər, yeni kəşflər arxasınca getsinlər. Hər il ölkə və dünya miqyasında keçirilən beynəlxalq elmi və intellektual yarışlarda ölkə təmsilçilərinin olması qürurverci bir duyğudur. Elmlə ölkəmizi tanıtmaq istəyən sagirdlərimizin sayında ildən-ilə artım müşahidə olunur. Yolunu elm öyrənməkdən salan şagirdlərimizdən biri də Məmmədov Elvin Rasim oğludur. O şərəfli bir əqidə daşıyıcısıdır.

Məmmədov Elvin Rasim oğlu, 14 aprel 2007-ci ildə Nəsimi rayonunda dünyaya göz açıb. 2013-cü ildə məktəbə yollanan Elvin hal-hazırda 71 nömrəli tam orta məktəbin 6a sinif şagirdidir. Ona dərs keçən bütün müəllimlərə qazandığı biliyə görə minnətdar olan Elvin Xəyalə, Afət, Esmira, Gülnaz, İlahə adlı müəllimələrinə sevdiyi tədris fənnindən dolayı xüsusi rəğbət bəslədiyini bildirdi. Sevərək mənimsədiyi biologiya fənninə böyük marağı isə gələcəkdə həkimlik peşəsinə olan istəyindən irəli gəlir. Elvinin müəllimlərinə olan dərin hörməti ilə yanaşı sinif yoldaşları ilə də dostluq münasibəti sağlamdır. Əla qiymətlərlə oxuduğu üçün hamının rəğbətini qazanan Elvin 4-cü sinfi məhz bu göstəricilərlə bitirdiyinə görə "Tərifnamə" ilə, Turan Tədris Mərkəzinin 23 dekabr 2017-ci ildə keçirilmiş sınaq imtahanında 5-ci siniflər arasında "Ən Yüksək Bal" nominasiyasında "I" yer tutduğuna görə Diploma, 2018-ci ildə eyni mərkəz tərəfindən təşkil olunmuş sınaq imtahanlarında "III" yer tutduğuna görə isə "Tərifnamə" ilə təltif olunmuşdur. Məktəbin fəallarından olan Elvin dərslərinə çox həvəslə yanaşdığı üçün qarşıda onu daha böyük uğurlar gözləyir. Asudə vaxtlarında məntiqi təfəkkürü artırmaq üçün test üzərində çalışır, nitq qabiliyyəti və dünyagörüşü inkişaf etdirmək üçün bədii kitablar oxuyur.

Valideynlərinin fəxri olan Elvin gələcəkdə həkim olub ehtiyacı olan xəstə insanlara şəfa verməк, yardım etmək istəyir.

Atası Məmmədov Rasim Tofiq oğlu 1980-ci il avqustun 19-da anadan olmuşdur. Ev təmiri ilə məşğul olur. Anası Məmmədova Zahidə Həsənağa qızı 1978-ci il oktyabrın 20 - də anadan olub, evdar xanımdır. 17 yaşlı qardaşı Məmmədov Rəşad tələbədir. 23 yaşlı Məleykə adlı bir bacısı var.

Təhsilə, elmə həvəsi olan Rasimə dərslərində və gələcək arzularını həyata keçirməkdə uğurlar diləyirik. Ümidvarıq ki, Elvin gələcəkdə savadlı və yararlı həkim olacaq. Uğurların bol olsun!



# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S.Vurğun və S.Rüstəmin, musiqisi Ü.Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

**Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır**

*Heydər Əlirza oğlu Əliyev*



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# Cavadova Zeynəb Rövşən qızı





"Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. İndiyə qədər yaranmış inkişaf təməlin üzərində Azərbaycan təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcək"

Bu sözləri Ulu Öndər Heydər Əliyev təhsil haqqında çıxışı zamanı qeyd etmişdir. Müstəqil ölkəmizdə günü-gündən inkişaf etməkdə olan təhsil sistemində olan yeniliklər onu daha da dayanıqlı və sağlam edir. Bir millət güclü təhsil sisteminə sahib olmayana kimi döyüş meydanlarında nə qədər parlaq zəfərlər əldə etsin, o zəfərlərin qalıcı nəticələr verməsi, ancaq sağlam təhsil sistemi ilə mümkündür. Bəli bütün ixtisas və peşələrin bünövrəsi təhsillə qoyulur. Hər hansı bir ölkənin gələcəyi ilə maraqlanırsansa, onun təhsil sisteminə bax. Maarifin güclü olduğu bir ölkə şübhəsiz ki, uğur qazanacaq. Azərbaycan təhsilinin maarifləndirdiyi Zeynəb balamız da gələcəyi parlaq olan şagirdlərdəndir.

Cavadova Zeynəb Rövşən qızı 24 Aprel 2005-ci ildə Sabirabad rayonunda dünyaya göz açıb. Ailəsinin sevimlisi olan Zeynəb 2012-ci ildə Sabirabad rayonunda yerləşən H. Z. Tağıyev adına 6 saylı tam orta məktəbin 1-ci sinfinə gedib. Hal -hazırda həmin məktəbin 7-ci sinfində təhsilini davam etdirən Zeynəb, sinif əlaçısıdır. Onun tərbiyəsi, nizam-intizamı və savadı məktəb rəhbərliyinin də diqqətini cəlb edib.Təsadüfi deyil ki, savad və biliyinə görə Zeynəb fəxri fərmanlarla təltif edilərək, əməyi məktəb tərəfindən qiymətləndirilib. Bütün fənləri mənimsəməsinə baxmayaraq Zeynəbin ən çox sevdiyi fənn riyaziyyat və doğma dilimiz olan Azərbaycan dilidir. Ona bu fənləri sevdirən Ofeliya və Şölə müəllimləri isə xüsusən çox sevir. Dərslərini həll etdikdən sonra Aysu kitab oxumağı və ruhun qidası olan musiqi dinləməyi də çox sevir. Gələcəkdə hansı peşəni seçəcəyi ilə bağlı sualımıza cavab olaraq Zeynəb müəllim olacağını dedi. Kiçik xanım azyaşlı olmasına baxmayaraq bu peşənin məsuliyyətini bilir və gələcəkdə bu yükü daşımağa hazır olduğunu qeyd edir. Sağlam və fədakar azərbaycanlı ailəsinin övladı olan Zeynəbin əsas dayağı ailəsidir. Ailə 5 nəfərdən ibarətdir.

Atası Cavadov Rövşən Fərhad oğlu sadə və zəhmətkeş vətəndaş olaraq öz halal zəhməti ilə ailəsini dolandırır, övladlarını himayə edir.

Anası Qurbanova Aidə Aydın qızı, evdar xanımdır.

Qardaşı Cavadov Fərhad 2003-cü, bacısı Cavadova Səkinə 2010-cu il təvəllüdlüdürlər.

Jurnalımızın rəhbərliyi adından balaca balamızı təbrik edir, ona gələcək həyatında xoş günlər, uğurlu tale arzu edirik. Uğurlarınla ailənin və məktəbin fəxri olasan əziz Zeynəb.

# Nuriyeva Aysel Ruslan qızı





Dünyada ən müqəddəs varlıq insan ruhudur. Təhsilin isə vəzifəsi bu ruhları inkişaf etdirib, kamala çatdırmaq olmalıdır. Məcbur öyrədilən təhsil həm çox əmək istər, həm də az işə yarıyar. Gərək insan öyrənmək yolunda öz istəyi və əzmi ilə mübarizə aparsın. Belə olduğu halda heç şübhəsiz ki, bunun bəhrəsini görəcəkdir.Elm və təhsil azadlığa aparan yeganə yoldur.

Viktor Hüqo deyib: "Tərbiyə nəfslə, təhsil biliklə bağlıdır. Bu iki proses bir-birini tamamlayır."

Növbəti yazımızın qəhrəmanı olan Aysel Nuriyeva da eyni qənaətdədir. O da təhsilə, biliklə bağlananlardandır.

Nuriyeva Aysel Ruslan qızı 13 iyul 2010-cu ildə Sabirabad rayonunun Qalağayın kəndində anadan olmuşdur. Təhsilinə də elə doğulub, böyüdüyü Sabirabad rayonunda Əli Qurbanov adına 1 saylı tam orta məktəbdə başlamışdır. 2016- ildə birinci sinfə qədəmlərini qoyan Aysel, hazırda 3-cü sinifdə təhsilini uğurla davam etdirir. Müəllim və ailəsinin sevimlisi olan Aysel dərslərindən yüksək qiymətlər alır. O,bütün fənlərdən əlaçıdır. Lakin, riyaziyyat və Azərbaycan dili fənləri ən çox sevdiyi fənlər sırasındadır. Ona elmin sirlərini aşılayan Xatirə müəlliməni lap çox istəyir. 3-cü sinif şagirdi olmasına baxmayaraq fəallığı, savadı ilə Aysel hər zaman seçilir. Hətta 1 və 2-ci sinifdə oxuyarkən "ilin şagirdi" olaraq seçilib. Gözəl əl qabiliyyəti olan Aysel balamız boş vaxtlarında rəngli qələmlərlə rəsm çəkməyi çox sevir.Gələcəkdə həkim olmağı indidən qarşısına məqsəd qoyub. Ayselin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Nuriyev Ruslan hərbi hissələrin birində işləyir.

Anası Nuriyeva Ülviyyə evdar qadındır.

Qardaşı Nuruyev Əli 2013-cü ildə dünyaya gəlib. Əli məktəbəqədər hazırlıq məşğələlərində hazırlaşır.

Jurnalımız və redaksiyamız adından Aysel balamızı və onun valideynlərini təbrik edirik. Ayselin vətənimizə və xalqımıza xeyirli vətəndaş olacağına inanırıq. Uğurların bol olsun Aysel!



# Zərifə Əziz qızı Əliyeva



**Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.**

1942-ci ildə orta məktəbi bitirdiktən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu bitirmişdir.

Sonra o, Moskva şəhərində Mərkəzi həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı səhiyyə kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologiyi" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layıq görülmüşdür. Geyd olunmalıdır ki, professor Z.Ə.Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlərini qiymətləndirərək, 1983-cü ildə Zərifə xanım Əliyevanı Azərbaycan SSR EA-nın akademiki seçdilər.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə orden və medallarla təltif olunmuşdu. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

# Damla Cəfərova









Elm - təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqlarını və obyektiv aləmə təsiri üsullarını öyrənən (meydana çıxaran) biliklər sistemi və bu biliklərin ayrıca sahəsi, insan biliklərinin müəyyən bir sahəsidir. Məsələn, elmlə məşğul olmaq, həyatını elmə sərf etmək, oxumaqla əldə edilən bilik, məlumat, bəzən savad, məlumat mənasında. Elmilik - elmi olma, elmə əsaslanma, elmi mahiyyət daşımadır . Məsələn, nəticələrin elmiliyi, sübutların elmiliyi. Elm dəqiq faktlara söykənən bir sahə olduğundan burda təxmin və gümanlara yer yoxdur. Eləcə də bu yolu tutanlar qarşısına məqsəd qoyub onun bütün incəlik və tərəflərinə dərindən bələd olmalıdır. Bu faktı özünə əsas götürən Damla Cəfərova adlı istedadlı şagirdlərdən biri də gələcək həyatını oxuyub ali təhsil almaqda görür, seçdiyi sahənin elmi tərəflərinə dərindən bələd olmaqla öz əməli faydasını vermək istəyir.

Damla Cəfərova Sahib qızı 22 may 2011- ci ildə Bakı şəhərində dünyaya göz açmışdır. O, 2017-ci ildə Laçın rayonu 29 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Damla hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Damla çox ağıllı və savadlı şagirdlərdən biridir. Onun ən zox sevdiyi fənn Azərbaycan dili, musiqi və ingilis dili fənnidir. Damla məktəbə gəldiyi ilk gündən müəllimlərin rəğbətini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllimə Lətifə Xəlilova, sinif rəhbəri Rəvanə müəllimə və Xatirə müəllimədir. Damla bu illər ərzində təhsil aldığı məktəbdə keçirilən fənnlərdən fəal iştirak etdiyi üçün bir çox mükafatlar əldə etmişdir. O, boş vaxtlarında kitab oxumağı və musiqiyə qulaq asmağı çox sevir. Damla balamızın ailəsi 8 nəfərdən ibarətdir.

Atası Cəfərov Sahib Əli oğlu, anasi Osmanova Minarədir. Onun Duyğu, Dəniz, Dərya adlı üç bacısı və Sadıx, Sadiq və Sultan adında 3 qardaşı var.

Damlanın arzusu gələcəkdə Tibb universitetinin tələbəsi olmaqdır.

Biz də öz redaksiyamız adından Damlanı gələcək həyatında bol-bol uğurlar arzu edirik. Yolun açıq olsun!



# Novruzov Təyyar İsmayıl oğlu





Elm təbiət, cəmiyyət və insan təfəkkürü haqqında obyektiv, sistemli və əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə və yayılmasına yönəlmiş insan fəaliyyətinin bir növüdür. Bu fəaliyyətin əsasını elmi faktların toplanması, onların daim yenilənməsi və sistemləşdirilməsi, tənqidi, analizi və bu əsasda biliklərin toplanması təşkil edir. Elm təkcə müşahidə edilən təbiət və ictimai halları təsvir etmir, həm də onlar arasındakı əlaqəni tapır və nəticəni müəyyən edə bilir. Hər hansı bir elm haqqında təsəvvürün formalaşması onu öyrənmək üçün atılmış ilk addımdır.

İndi haqqında danışacağımız Təyyar balamız da elmin sirlərinə yiyələnmək üçün yola çıxmış savadlı şagirdlərdən biridir. Əslən Laçın rayonundan olan Novruzov Təyyar İsmayıl oğlu 2 Avqust 2010-cu ildə Fizuli rayonunda anadan olmuşdur. Orta təhsil həyatına ilk addımlarını Sabirabad rayonunda yerləşən Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbdə atmışdır. 2016-cı ildə birinci sinfə yollanan Təyyar hal-hazırda 3 -cü sinif şagirdidir. Sinif əlaçısı olan Təyyarın ən çox sevdiyi fənn riyaziyyatdır. Ona bu fənni tədris edən Kifayət müəlliməni isə lap çox sevir. Fəal və çalışqan olan balaca Təyyar kiçik və böyük summativ qiymətləndirmələrdən yüksək qiymətlər alaraq valideynlərini sevindirməyi bacarır. Gələcəkdə müəllim olub, bütün elmlərin açarı olan riyaziyyat fənnini tədris etmək istəyən Təyyar boş vaxtlarını da səmərəli keçirir. Qəhrəmanımız asudə vaxtlarında idmanla məşğul olur.

Təyyarın qardaşı Novruzov Eldəniz də böyük qardaşının etdiklərini təkrarlayır və onun kimi çalışqan, fəal şagird olmaq istəyir. Qeyd edək ki, Təyyarın atası Polis əməkdaşıdır. Anası isə evdar xanımdır.

Biz də jurnalımız və redaksiyamız adından Təyyarı təbrik edir, ona gələcək həyatında və peşəsində uğurlar arzulayırıq. Yolun daim açıq və işıqlı olsun!

# Məmmədova Aysu Fərrux qızı



**”Alim böyük bir bankın xəzinədarına bənzəyir. Böyük bir xəzinənin açarı onun əlindədir lakin, bu xəzinə ona məxsus deyil”**
***(L. Barne)***

Elm dünyası elə bir xəzinədir ki, ona sahiblənmək hər kəsə nəsib olmur. Sirlərin bitib tükənmək bilmədiyi ucsuz - bucaqsız bir kainatın kiçik bir zərrəciyi olan insan, min illər boyu dünyanın, yaradılışın sirlərini aşkara çıxarmaq üçün əlindən gələni edir. Bu danılmaz həqiqətdir ki, hələ də elmə məlum olmayan çox sirlər var.Buna baxmayaraq elm dünyası çox qapalı qapıları açmış, insanları həqiqətlərdən agah etmişdir. 21-ci əsr texnologiya əsri kimi tarixə yazılmış bir əsrdir. Elm adamları nəinki yer planetində, hətta başqa səmavi planetlərdə də araşdırmalar aparır. Bu da elmin nə qədər inkişaf etdiyini göstərən bir dəlildir. Təhsili, elmi cəmiyyətin fəal hərəkətverici, inkişafetdirici qüvvəsinə çevirənlər isə məhz müəllimlərdir. Təhsilin məzmunu nə qədər yüksək və mükəmməl, maddi-texniki bazası nə qədər möhkəm, biliklərin ötürülməsi vasitələri nə qədər təkmil və müasir olsa da, əgər müəllim yoxdursa, heç nədir. Müəllimin bəhrəsi isə onun şagirdləridir. Bu yazı da müəllimlərinin sevimlisi olan Aysu Məmmədova haqqındadır. Aysu balamız da gələcəkdə elmə tövhələr verə biləcək potensialda olan bir şagirddir. Tanıdaq ki, siz də tanıyın.

Məmmədova Aysu Fərrux qızı 18 dekabr 2008-ci ildə Sabirabad rayonunda dünyaya göz açıb. Dünyaya gəlişi ilə ailəsinə sevinc gətirin Aysu, təhsil həyatına elə doğulduğu Sabirabad rayonunda yerləşən Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbdə başlayıb. 2016-cı ildə birinci sinfə daxil olan Aysu, hal-hazırda eyni məktəbin 4-cü sinif şagirdidir. Dərslərində qazandığı uğur və nəaliyyətlər onun təhsilə marağını daha da artırır. Sinif əlaçısı olan xanım qəhrəmanımız, siniflərarası bilik yarışlarında iştirak etmiş və böyük nəaliyyətlər qazanmışdır. Aysu bütün elmlərin təməli olan riyaziyyat fənnini və ona bu fənni tədris edən Ramidə müəlliməni çox sevir. Bu cür çalışqan və fəal bir şagirdin asudə vaxtlarını boş keçirmədiyini də öyrənmiş olduq. Aysu deyir ki, boş vaxtlarında kitab oxumağı, bilmədiyi yeni məlumatları toplayaraq öyrənmək ona böyük zövq verir. Özünü gələcəyin müəllimi kimi görmək istəyən Aysu balamızın ailəsi 6 nəfərdən ibarətdir.

Atası Məmmədov Fərrux 1970-ci ildə dünyaya gəlib. O ticarətçidir.

Anası Məmmədova Sevinc 1974-cü il təvəllüdlüdür. Sevinc xanım evdar qadındır.

Qardaşları Fərid və Elvin 1998 və 2005-ci il təvvəllüdlüdürlər. Bacısı Məmmədova İzzət ailəlidir.

Jurnalımız və kollektivimiz adından valideynlərini və ailənin son beşiyi olan Aysunu təbrik edir və gələcək həyatında uğurlarının davamlı olmasını arzu edirik. Təhsil xəzinədir, elm onun açarı. Qoy Aysu öz elmi ilə təhsil həyatının xəzinəsini zənginləşdirib, ondan düzgün faydalansın.



# Cəfərova Duyğu







Bilik xəzinədir. Elm, bilik o qədər ilham mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər.

Öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz həyat həyat deyil. O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir, çox şeyi başqalarından öyrənir, hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır.

Biz elmi-texniki tərəqqi əsrində yaşayırıq. Bu əsr elə bir əsrdir ki, bu zamanda cəmiyyətin inkişaf templəri, onun iqtisadi -sosial inkişafı birbaşa olaraq bilik və elmdən asılıdır. Elmə dəyər verib indidən dərslərinə böyük həvəslə oxuyan və gələcəyini bu sahədə görən istedadlı şagirdlərimizdən biri də Duyğu Cəfərovadır. Bu yazı isə onun haqqındadır.

Cəfərova Duyğu Sahib qızı 12 avqust 2009-cu ildə Bakı şəhərində dünyaya göz açıb. Duyğu 2015-ci ildə Laçın rayonu 29 saylı tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. O, hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Duyğu sinif üzrə ən fəal və əlaçı şagirdlərdən biri olmaqla bütün fənlərdən əla qiymətlər alır. Duyğu az yaşlı olmağına baxmayaraq müəllimlərin sevgisini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllimə Tahirə Məmmədova, sinif rəhbəri Rəvanə müəllim və Xatirə müəllimdir. Duyğu boş



vaxtlarında kitab oxumağı çox sevir. O, gələcəkdə ali təhsilli musiqiçi ya da modeler olmaq arzusundadır. Valideynlərinin fəxri olan Duyğu balamızın ailəsi 9 nəfərdən ibarətdir.

Duyğunun atası Cəfərov Sahib Əlioğlu 1976-cı ildə anadan olmuşdur. O, sürücü kimi fəaliyyət göstərir.

Anası Osmanova Minarə 1980-cı ildə anadan olmuşdur, evdar xanımdır.

Bacıları Damla, Dəniz, Dərya, qardaşları isə Sadıx, Sadiq, Sultandır.

Biz də öz jurnalımız adından Duyğuya gələcək həyat yolunda bol-bol uğurlar arzu edir və arzuladığı peşəyə yiyələnməsini diləyirik. Yolun açıq olsun!

# Məmmədli Aysu Tağı qızı





Bir ölkənin təbii sərvətlərinin zənginliyi, əlverişli coğrafi mövqeydə yerləşməsi onun digər ölkələrlə müqayisədə üstün olması anlamına gəlir. Lakin, ölkə əhalisinin yüksək faizi savadsız, təhsilsizdirsə bu üstünlüklərin heç bir faydası yoxdur. Əgər dünya ölkələrinə nəzər yetirsək görərik ki, bəzi şərq ölkələri neft, qaz və digər təbii sərvətlərlə zəngin olsa da xalq səfalət içində yaşayır. Bunun ən böyük səbəbi isə geridə qalmış təhsil və yalnış idarəçilik sistemidir. Elmin insan həyatında əvəz edilməz rolunu bax burdan aşkarlamaq olar. Yəni heç bir təbii sərvət işlək insan beynindən qiymətli olmaz. Təbii sərvət tükəndiyi halda, insan beyni yaratdığı xarülqələrlə davamını sürdürür. Kamillik elə bir zirvədir ki, onun hikmətini anladıqdan sona uğrunda çəkmiş olduğun bütün əziyyətlər sənə xoş gələr. Kamilliyin zirvəsinə iri addımlarla gedən şagirdlərdən biri də Aysu balamızdır. Bu yazımız onun haqqındadır.

Məmmədli Aysu Tağı qızı, 10 Oktyabr 2006-cı ildə, Sabirabad rayonunda dünyaya göz açmışdır. Uşaq yaşlarından dəftər, kitaba həvəsli olan Aysu, 2012-ci ildə Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbin 1-ci sinfinə yollanmışdır. Hələ ibtidai sinifdə təhsil alarkən Aysu balamız, məntiqi savadı ilə diqqət cəlb edirdi. Hazırda isə eyni məktəbin 7-ci sinif şagirdi olan Aysu əlaçıdır. Hətta məktəb rəhbərliyinin də diqqətindən yayınmayan istedadlı şagirdimiz, 2 dəfə fəxri fərmanla təltif edilib. Kiçik xanımın dediyinə görə, riyaziyyat, coğrafiya, və Azərbaycan dili fənlərini böyük həvəslə mənimsəyir. Ən sevdiyi müəllimələri isə, Ofeliya, Şölə və Gilas müəllimdir. Aysu gündəlik planında sevdiyi işlərlə məşğul olmağa da vaxt ayırır. Pozitiv ruhlu olan Aysu, boş vaxtlarında rəsm çəkməyi xüsusən çox sevir. Hətta bu qabilliyyətini təkcə hobbi kimi də yox, gələcək peşəsi kimi də seçmək istəyir. Eyni zaman da müəllim olmağı da düşünən Aysu balamız ailənin tək övladıdır.

Atası Məmmədov Tağı 1963-cü il təvəllüdlüdür. Hazırda işsizdir.

Anası Məmmədova Şəmsiyyə 1967-ci ildə anadan olub. Şəmsiyyə xanım evdar qadındır.

Valideynlərinin gözünün ağı-qarası olan Aysu balamızı redaksiyamız adından səmimi qəlbdən təbrik edir, həyatın enişli- yoxuşlu yollarında ona güc və bol şans diləyirik.



# Əmiraslanova Nərgiz



**"Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz"**

***Sokrat***

"Əsl müəllim necə olmalıdır" sualı hər zaman insanları düşündürüb. Müəllimə müxtəlif təriflər verilib, müəllimin kimliyini hərə bir cür izah edib. Belə bir fikir var ki, pis müəllim təsvir edir, yaxşı müəllim izah edir, əla müəllim göstərir, dahi müəllim həvəsləndirir, həqiqi müəllim isə arxasınca aparır.

Gəlin, sizə öz şagirdləri üçün həqiqi müəllim olan, onların hər birini oxumağa, öyrənməyə həvəsləndirməklə yanaşı, arxasınca aparan həqiqi müəllim Əmiraslanova Nərgiz müəllimədən danışaq.

Əmiraslanova Nərgiz Hidayət qızı 20 may 1962-ci ildə Göygöl rayonu Pirverdilər kəndində anadan olub. 1969-cu ildə Göygöl şəhər 4 saylı orta məktəbin 1-ci sinfinə qəbul olub. Orta təhsilini bitirdikdən sonra, Bakı Dövlət Universitetinin coğrafiya ixtisasına qəbul olub və təhsilini uğurla başa vurub. Ali təhsilini başa vurduqdan sonra müəllim kimi fəaliyyət göstərməyə başlayıb. Dərs deməyə başladığı ilk gündən cəmiyyətə, millətə faydalı nəsil yetişdirmək üçün var gücü ilə çalışan və dərs dediyi bütün şagirdləri tərəfindən sözün əsl mənasında sevilən və hörmət edilən, sayılıb-seçilən müəllimlərdəndir Nərgiz müəllimə. O, hal-hazırda 6 saylı orta məktəbin direktor vəzifəsində çalışır. Ömrü boyu mütaliəni həyat devizinə çevirən bu müəllim öyrənməyin və öyrətməyin heç vaxt gec olmadığı qənaətindədir. Təsadüfi deyildir ki, öz ixtisası üzrə keçirilən imtahanlardan ən yüksək balı yığaraq müəllim və şagird kollektivinə nümunə olub. Valideynləri vəfat etsə də böyük bir ailənin yetirməsidir.Dörd qardaş və üç bacısı var.

Kollektiv arasında hörmət qazanan, şagirdlərin sevimli müəllimi olan, gələcəyə sağlam düşüncəli, vətəna layiq vətəndaşlar yetişdirən Əmiraslanova Nərgiz müəllimə biz də öz adımızdan təşəkkür edir, ona bir müəllim üçün ən dəyərli sərvət olan bol-bol şagird uğurları arzu edirik!

# Şükürlü Aliyə



Elm obyektiv, sistemli və əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə və yayılmasına yönəlmiş insan fəaliyyəti növüdür. Bu fəaliyyətin əsasını elmi faktların toplanması, onların daima yenilənməsi və sistemləşdirilməsi, tənqidi analizi və bu əsasda elmi biliklərin toplanması təşkil edir. Elm təkcə müşahidə edilən təbiət və ictimai halları təsvir etmir, həm də onların əlaqələrini tapır və nəticəni müəyyən edə bilir.

Şükürlü Aliyə Arif qızı 25 sentyabr 2010-cu ildə Bakı şəhərində anadan olub. O Şuşa rayonu 1 nömrəli tam orta məktəbin 3-cü sinif şagirdidir. Aliyə az yaşlı olmağına baxmayaraq çox məsuliyyətli və çalışqan şagirddir. O, bütün fənnləri sevərək dərk edir. Aliyə boş vaxtlarında kitab oxumağı çox sevir. Məktəbə gəldiyi ilk gündən müəllimlərin və sinif yoldaşlarının sevgisini qazanmağı bacarıb. Onun gözəl şəkil çəkmə qabiliyyəti də vardır. Valideynlərinin fəxri olan Aliyə balamızın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Şükürlü Arif Vaqif oğlu.

Anası Şükürlü Vüsalə Şəmsi qızı.

Qardaşı Şükürlü Əli.

Biz də öz redaksiyamız adından Aliyəyə gələcək həyatında bol-bol uğurlar arzu edirik. Səsin daima ucalardan gəlsin!



# Nəsrullayeva Sənay






Elmin cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına və ictimai həyatın müxtəlif sahələrinə təsirinin sosial nəticələri mühümdür. Elm həmçinin təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemidir.

Nəsrullayeva Sənay Vüqar qızı 13 fevral 2009-cu ildə Ağsu rayonunda dünyaya göz açıb. O, 2015-ci ildə 297 nömrəli tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Sənay hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Sənay çox çalışqan və məsuliyyətli şagirddir. O, tədris ilində keçirilən fənnlərdən əla qiymətlər alır. Sənay balamızın ən çox sevdiyi fənn Azərbaycan dili fənnidir. Dərslərdə göstərdiyi fəallığı ilə sinif yoldaşlarından fərqlənir. Sənay müəllimlərin sevimlisinə çevrilmişdir. Həmişə öyrəndiklərinə görə üstündə əziyyəti olan müəllimlərinə minnətdarlığını bildirir. O, müəllimlərin hörmətini və rəğbətini qoruyub saxlayır. Ən çox sevdiyi müəllimə Aynurə müəllimədir. Sənay dərslərində fəal iştirak etdiyinə görə bir çox sertifikatlar, fəxri fərman və diplomlarla mükafatlandırılmışdır. O, dərslərindən əlavə boş vaxtlarında şeir yazır, kitab oxuyur və rəsm çəkir. Belə bir deyim var ki, ''Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz''. Dünyada gözəl, nəcib peşələr çoxdur. Həkim insanların sağlamlığının keşiyində dayanır, xəstələrə şəfa verir. Mühəndis fabrik və zavodları işlədir, hündür binalar ucaldır, yollar çəkir, körpülər salır. Kosmonavt fəzanı fəth edir, müxtəlif planetlərin sirlərini öyrənir. Fəqət bütün peşələrin fövqündə dayanan müqəddəs bir peşə də var. Bu, müəllimlikdir. Həkim də, mühəndis də, kosmonavt da seçdikləri sənətin sirlərini məhz müəllimdən öyrənirlər. Müəllim elm, bilik xəzinəsinin qapısını insanların üzünə açan bir varlıqdır. Sənay da gələcəkdə müəllim olmaq arzusundadır. Sənay balamızın ailəsi 5 nəfərdən ibarətdir.

Atası Nəsrullayev Vüqar İnqilab oğlu, sahibkardır.

Anası Nəsrullayeva Səbinə Nəbi qızı, evdar xanımdır.

Qardaşı Nəsrullayev Elay, məktəblidir,1-ci sinif şagirdidir.

Bacısı Nəsrullayeva Aytən, məktəblidir, 6-cı sinif şagirdidir.

Sənay öhdəsinə düşən bütün işləri uğurla görəcək. İstedad, əzm və qətiyyət sayəsində sonda bu yarışdan qalib çıxacaq.

# TAĞIYEVA RƏVANƏ



**“Təhsil müqəddəs cihaddır. Alimlər tanrının güvəndiyi adamlardır və peyğəmbərlərin varisləridir. ”**

***Məhəmməd Peyğəmbər ( s. ə. s )***

Əgər bir gün yolunuzu itirsəniz, bir uşağın gözlərinin içinə baxın. Çünki bir uşağın bir yetkinə hər zaman öyrədə biləcəyi üç şey vardır:

1-ci səbəbsiz yerə xoşbəxt olmaq,

2-ci hər zaman məşğul ola biləcək bir şey tapmaq,

3-cü əldə etmək istədiyi şey üçün var gücüylə söyləmək.

Böyük uğurlar qiymətli anaların yetişdirdikləri seçmə uşaqlar sayəsində olmuşdur. Səməd Vurğunun belə bir sözü var: “ Dünya bir evdirsə, övlad işıqdır, oğul arxadırsa qız yaraşıqdır”. Ailəsinin arxa dayağı olan, onların gələcəkdə fəxr mənbəyi olmağını arzu etdən Tağıyeva Rəvanə Hüseyn qızı 21 oktyabr 2008-ci ildə Tovuz rayonu Ağbulaq kəndində anadan olmuşdur. 2014-ci ildə Qubadlı rayon İsa Məmmədov adına Aşağı Mollu kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Rəvanə xüsusi bir qayğı və nəvazişlə böyüdülmüş övladdır. Onun məqsədi dərslərini əla oxuyub ali məktəbə qəbul olmaqdır və savadlı bir kadr olmaq yönündə irəliləməkdir. Ürəyəyatımlılığı və şirindilliliyi ilə özünü hər yerdə sevdirməyi bacaran Rəvanə, həm də ağlı, vətənpərvərliyi, kiçik yaşında böyük düşüncələri ilə yaşıdlarından fərqlənir. Məktəb həyatında da bu üstünlükləri ilə daha da irəliyə gedən Rəvanə bu səbəbdəndir ki, müəllimlərinin diqqət mərkəzində olmağı bacarıb. Ən sevimli müəlliməsi Vəfa müəllim, ən sevdiyi fənlər isə Azərbaycan dili və riyaziyyatdır. Onun bir çox uğurları var, belə ki, bilik yarışlarında iştirak edib və 3-cü yer tutub. Boş vaxtlarını kitab oxumaqla dəyərləndirən müsahibimiz, mütaliənin xeyirin əldə etdiyi nailiyyətlərdə, özünü ifadə etmək bacarığında görür. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası-Tağıyev Hüseyn Vəli oğlu, 5 oktyabr 1966-cı ildə anadan olub, zavodda mexanik işləyir.

Anası-Məmmədova Səidə Ənvər qızı,5 sentyabr 1974-cü ildə anadan olub, evdar xanımdır.

Qardaşı-Tağıyev Qismət Hüseyn oğlu.

Biz də ümid edirik ki, rəngarəng, uğur dolu olan bu həyat yolunda büdrəmədən, hər zaman inanaraq irəli getsin. Ailəsinin fəxri və sevinci olsun.



# Şükürlü Əli



Elm - təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqlarını və obyektiv aləmə təsiri üsullarını öyrənən (meydana çıxaran) biliklər sistemi və bu biliklərin ayrıca sahəsidir. Ağıllı və savadlı insanın  əsas məşğuliyyəti elmlə məşğul olmaq, həyatını elmə sərf etmək, oxumaqla əldə edilən bilik, məlumatlarla yeni kəşflərə təkan verməkdir. Elmi yanaşma, elmli olmaq  - elmin əsas qayəsi və əsaslanmalarına, struktur və prinsiplərinə, yəni elmi mahiyyət daşımaya yönələn idraki bir prosesdir. Məsələn, nəticələrin elmiliyi, sübatların elmiliyi uzun sürən araşdırma və elmi qənaətə gəlməklə, həm də insan idarkının qabil olduğu bacarıq və imkanlar toplumunu sübut edir. Bu proseslər də  cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına və ictimai həyatın müxtəlif sahələrinin tərəqqisinə xidmət edir. Elm həmçinin təbiət, cəmiyyət və insan təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemidir.

Yüksək elm və dərin bilik elə yüksək təhsil sisteminin nəzarəti və işləmə mexanizmi sayəsində mənimsənilir, tədris edilir. Əks halda həmin cəmiyyətdə nə təhsildən, nə də onun uğurlarından danışmaq olmaz. Təhsilin uğurlu gələcəyinin ən başlıca yolu gənclərin təhsilinin zamanında nəzarət və diqqətdən kənar qalmaması, zamanında bacarıqlı və savadlı şagirdləri stimullaşdırıb motivasiya edilməsidir. Elə bu yazımızda da Şükürlü Əli Arif oğlu haqqında yazı verməklə onun təhsilə olan marağını daha da artırmaq və həvəsləndirməkdir. O 14 yanvar 2012-ci ildə Bakı şəhərində anadan olub. Əli hazırda Şuşa şəhəri 1 saylı tam orta məktəbinin 1-ci sinifində təhsil alır. O  sinifdə nümunəvi və fəal şagirdlərdən biridir.  Onun ən çox sevdiyi fənn riyaziyyat fənnidir. Əli məktəbdə keçirilən bilik yarışlarında fəal iştirak etdiyi üçün bir çox mükafatlar əldə edərək valideyn və məktəb kollektivinin sevindirib. Çünki onun indiki uğurları onun gələcəyə olan yüksək potensialından xəbər verir və doğmalarında inam yaradır. O, boş vaxtlarında rəsm çəkməyi çox sevir. Az yaşlı olmağına baxmayaraq çox məsuliyyətli şagirdlərdən biridir.  Valideynlərinin fəxri olan Əli balamızın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Şükürlü Arif Vaqif oğlu, hərbiçidir Əli atasını çox sevdiyini bildirir.

Anası Şükürlü Vüsalə Şəmsi qızı, iptidai sinif müəllimidir.

Bacısı Şükürlü Aliyə Arif qızı.

Əli balamızın arzusu gələcəkdə hüquq-mühafizə orqanlarında çalışmaqdır.

Biz də Şükürlü Əliyə jurnalımız adından bol-bol uğur və müvəffəqiyyətlər arzu edir, gələcəkdə istədiyi peşəyə yiyələnməsini diləyirik. Yolun hər zaman açıq olsun!

# Məmmədli Ləman Turan qızı





Bizə məxsus olan, ətrafımızda görə bildiyimiz bütün maddi şeylər bir göz qırpımında əldən çıxa bilər. Lakin, mənəvi qazandıqlarımız ömrümüzün sonuna kimi bizimlə qalacaqdır. Heç bir insani qüvvə elmdən aldığımız gücü əlimizdən almaq iqtidarında deyildir. Savadlı bir kəsin nəinki özünə, bütün bəşəriyyətə faydası dəyir. Tarix boyu həmişə elm adamlarına böyük dəyər verilib. Ölkəmizdə də elmin müxtəlif sahələrində rolu olan kəslər az deyil. Qeyri-səlis məntiq nəzəriyyəsinin banisi olan Lütfizadə xarici ölkələrdə Azərbaycanı tanıtmış və sayılıb seçilən alimlərdən olmuşdur. İndi bütün ağıllı texnoloji qurğular məhz Lütfizadənin irəli sürdüyü nəzəriyyə əsasında işləyir. Azərbaycanın müxtəlif bölgələrində təhsil alan elə şagirdlər var ki, bəlkə də bir neçə il sonra onlar öz intellektual beyinləri ilə ölkəmizi dünyanın müxtəlif yerlərində təmsil edəcəklər. Gələcəyini təxmin etdiyimiz kimi görmək istədiyimiz Ləman Məmmədli hələlik dünyada olmasa da, oxuduğu məktəbin seçilmişlərindədir.

Məmmədli Ləman Turan qızı 24 Yanvar 2009-cu ildə Sabirabad rayonunda anadan olmuşdur. Həyatının vacib mərhələsinin başlanğıcı olan təhsil həyatına 2015-ci il də başlayan Ləman balamız, rayonda Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbin 1-ci sinfinə gedib. Məktəb həyatına uğurla başlayan balaca Ləman, 6 saylı məktəbin fəal və çalışqan şagirdlərindən hesab edilir. Hazırda 4-cü sinifdə təhsilini davam etdirən xanım qəhrəmanımız sinif əlaçısıdır.Mehriban və təşəbbüskar müəllimləri tərəfindən ona tədris olunan fənləri məharətlə mənimsəyən Ləmanın ən çox sevdiyi fənnlər sırasında birinci yeri riyaziyyat tutur. Bütün müəllim heyyətini çox istəyən qəhrəmanımız Ramidə müəlliməni bir qədər artıq sevir. Yaşının az olmasına baxmayaraq o çox ağıllı və məntiqli şagirddir. Ləman deyir ki, ev tapşırıqlarını həll etdikdən sonra, boş vaxtını anasına kömək etmək və ondan ev işlərini öyrənməklə keçirir. Hər bir uşaq kimi Ləmanın da gələcək həyatı ilə bağlı arzuları var. O ən müqəddəs peşə olan müəllimlik ixtisasına yiyələnərək, ölkəmiz üçün savadlı uşaqlar yetişdirmək istəyir. Tərbiyəli, nizam -intizamlı olduğuna görə müəllimlərinin və sinif yoldaşlarının hörmətini qazanıb. Sağlam ailənin övladı olan Ləmanın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Məmmədov Turan Əfsər oğlu 31 dekabr 1979-cu ildə anadan olmuşdur. Turan bəy adminstrator işləyir.

Anası Məmmədova Xanım Əli qızı 12 aprel 1985-ci il təvəllüdlüdür. Ləmanın anası evdar qadındır.

Qardaşı Məmmədli Əfsərin 7 yaşı var. O məktəblidir.Gələcəyin pedaqoqu olmağı planlaşdıran Ləmanı biz də jurnalımız adından təbrik edir, ona təhsil həyatında müvəffəqiyyətlər arzu edirik. Həmişə ata ananın fəxr və qürur mənbəyi olasan.



# Asim İbrahimli









Biz elmi-texniki tərəqqi əsrində yaşayırıq. Bu əsr elə bir əsrdir ki, bu zamanda cəmiyyətin inkişaf templəri, onun iqtisadi inkişafı birbaşa olaraq bilik və elmdən asılıdır.

Bilik bir gücdür. Elm öyrənmək böyük bir zəhmətdir. J.J.Russo demişdir: "Döyüşdə silah lazım olduğu kimi, həyatda da bilik lazımdır."

İbrahimli Asim Əliqismət oğlu 17 may 2006-cı ildə Bakı şəhərində dünyaya göz açmışdır. Asim 2012-ci ildə 29 saylı tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. O, hal-hazırda elə həmin məktəbin 5-ci sinif şagirdidir. Asim çox məsuliyyətli və çalışqan şagirddir. O, məktəbə gəldiyi ilk gündən müəllimlərin rəğbətini qazanmağı bacarmışdır. Asim balamızın ən çox sevdiyi fənn Azərbaycan dili, riyaziyyat, tarix və ədəbiyyat fənnidir. Asimin çox gözəl rəsm çəkmək bacarığı vardır. Asim ona dərs deyən bütün fənn müəllimlərini çox sevdiyini qeyd edib. Valideynlərinin fəxri olan Asim balamızın arzusu gələcəkdə həm polis, həm də rəssam olmaqdır. Ailəsi 5 nəfərdən ibarətdir.

Ailədə valideynlərindən başqa 2 qardaşı var.

İbrahimli Asimə biz də öz jurnalımız adından uğurlar və müvəffəqiyyətlər arzu edir, valideynlərinə, müəllimlərinə vətənin layiqli övlad olmağını diləyirik. Yolun açıq olsun, səsin daima ucalardan gəlsin!



# Rəhman Məmmədli







**"Elm bir müharibə meydanını xatırladır. Yaradıcı alimlər ön cəbhədə olur və əsl döyüş də burada gedir. Arxa cəbhədə olanların vəzifəsi öndəkiləri silah-sursat və azuqə ilə təmin etmək, tutulmuş ərazilərdə səliqə-sahman yaratmaqdır"**
**(Əbu Turxan)**

Elm bütün nəaliyyətlərinə görə xəyala borclu olsa da, amma əsas tədqiq obyekti dəqiq faktlardır. Fakt isə təsvir məqamında olan hadisədir. Elmin cövhəri qızıl kimidir, köhnəldikcə təzələnir ifadəsində də həqiqət payı var. Nə qədər öyrənsən, istənilən yaşda sənin üçün hikmət mənbəyidir, dünyagörüş materialıdır. Bir insan ancaq zəngin dünyagörüşünü, cəmiyyətdəki nüfuzunu oxuyub öyrənmək, ixtisasına mükəmməl sahiblənməklə təmin edə bilər.Elmə xilaskar kimi baxmaq olar, amma bundan düzgün istifadə etməsən sanki robotdan mərhəmət diləmək kimi bir anlaşılmaz durum yaranar. Odur ki, insana özünü dəyərləndirməyi öyrədib elmin düzgün anlamını öyrətmək lazımdır ki, bütün elmlər bəşəriyyətə, onun inkişafına, həqiqətlərin üzə çıxmasına xidmət edir. Və bu xidmətin vasitəçiləri təhsilli insanlardır. Gələcəyini təhsilli ixtisası ilə cəmiyyətin inkişafına faydalı olacağını düşünən və indidən təhsilindən ikiəlli yapışan seçmə şagirdlərdən biri də Rəhman Məmmədlidir. Jurnalın növbəti yazısı onun tərcüməyi halı və bacarıqları haqqındadır.

Məmmədli Rəhman Zakir oğlu 2005-ci ilin oktyabrın 18-də Bakıda doğulub. 2011-ci ildə Emin Əliyev adına 297 nömrəli tam orta məktəbə gedən Rəhman hazırda həmin məktəbin 7ç sinif şagirdidir. İlk sinifdən indiyə qədər dərslərində seçilməyi və müəllimləri tərəfindən sevilməyi bacarıb. Ən sevdiyi fənnlər tarix və riyaziyyatdır. Daha çox rəğbət bəslədiyi müəllimi isə Arzu müəllimdir. Gündəlik dərsləri ilə məşğul olduqdan sonra asudə vaxtını da səmərəli keçirir. Boş vaxtlarında müxtəlif bədii əsərlər oxumaqla dünyagörüşünü və nitq qabiliyyətini püxtələşdirir. Həmçinin üzgüçülük və şahmatla da həvəskar kimi məşğul olur. Gələcəyi ilə bağlı arzuları çoxdur və ən böyük arzusu ixtisası ilə bağlıdır. Orta məktəbi bitirdikdən sonra jurnalistikanı oxuyaraq peşəkar jurnalist kimi yetişməkdir niyyəti. Çünki cəmiyyətin görən gözü və göstərən siması olmaq istəyir. Yaxşı yazı qabiliyyəti olan Rəhman həmişə inşa müsabiqələrində birinci yerə layiq olur. Məhz bu qələmin gücünü gələcəkdə jurnalist ixtisasında davam etdirmək istəyi də normaldır Rəhmanın . Elə ailəsi də ona hər zaman dəstəkçi və arxadayaqdırlar. 4 nəfərdən ibarət ailəsində ata Məmmədov Zakir Əjdər oğlu iş adamı, anası Məmmədova Firuzə Vəli qızı evdar xanımdır. Bacısı Məmmədli Gülsüm Zakir qızı isə 11-ci sinif şagirdidir. O da tibb sahəsinə hazılaşır və indidən yüksək nəticələrlə buna ümid verir.

Elm-təhsil almaq yolunda Məmmədli Rəhmana redaksiyamız adından uğurlar arzulayaraq həmişə birincilərdən olmağı diləyirik. Gələcək həyatı parlaq, arzuları çin, doğmalarının fəxri olsun daima.



# İsmayılova Nəzrin





**"Elm neçə əsrlər ərzində hamılıqla tikilən möhtəşəm bir məbəddir ki, onun hər bir daşını qoymaq bir çox alimlərə bütün ömrü müqabilində müyəssər olmuşdur"**
**(Puankare)**

Elm əvvəlcədən yazılmış kitab olduğuna görə alimlər onu yenidən yazmağa deyil, oxumağa çalışmalıdırlar. Amma dəqiq faktlara söykəndiyi kimi, daim axtarış və dəlil tələb edir. Odur ki, elmin müxtəlif sahələrində çalışan insanlar daim araşdırma və axtarışda olmalı, dəqiq nəticələr alınana qədər prosesləri davam etdirməlidirlər. Yaxşı yaşamaq ayrı hikmət olsa da elm dünyanı öyrənir. Yəni dünyamızın gərəkən gerçək faktları elmin sayəsində öyrənilir, alimlər tərəfindən araşdırılaraq üzə çıxarılır. Amma bunu bacarmaq üçün də gərək insan özü elmli, təhsilli olsun. Məşğul olduğu sahə ilə insan geniş məlumatlı olmasa araşdırdığı faktlardan və onların mahiyyətindən anlamaz. Boş yerə dilimizdə mütəxəssis, ixtisaslı kadr ifadələri yaranmayıb. Odur ki, savad, təhsil müəyyən həqiqətə aparan doğru yoldur. Bu yolun yolçularına dəstək olunmalı və hər zaman diqqət mərkəzində saxlanılmalıdır. Təhsil jurnalı olaraq biz də çalışırıq ki, bu şərəfli yolun ilk yolçularını öz mətbuat orqanımızda işıqlandırmaqla onlara stimul olaq. Belə yolçulardan biri də savadlı və çalışqan Nəzrin İsmayılovadır.

İsmayılova Nəzrin Anar qızı 26 avqust 2011-ci ildə Bakı şəhərində dünyaya göz açıb. 2017-ci ilin tədris ilində məktəb həyatına başlayan Nəzrin hazırda 71 saylı tam orta məktəbin 2-ci sinif şagirdidir. Fəal və ağıllı qız olan Nəzrin siniflərində seçilən əlaçı şagirdlərdəndir. Öz sözlərinə inansaq bütün fənnlərdən əla qiymət alır. Ən sevdiyi fənn Azərbaycan dili, ən rəğbət bəslədiyi müəllim isə Şövkət və Nərgiz müəllimdir. Məhz Nəzrin belə xoşagələn xüsusiyyətlərinə görə ilk sinifdən müəllimlərinin sevgisini və rəğbətini qazanıb. Mütaliə və rəqs etmək onun ən sevimli məşğuliyyətidir. Valideynlərinə layiqli övlad olmağı qarşısına məqsəd qoyan Nəzrin bala bilir ki, bunu orta məktəbi uğurla bitirib yüksək ali təhsil almaqla gerçəkləşdirə bilər. Gələcəkdə özünü model-yer-dizayner kimi görmək istəyir. Simaca gözəl və xoş təsir bağılaşayan bu qızcığaz ağlı kimi elə gözəllikdə və qabiliyyətdə də seçiləcəyinə əminik. Hər zaman ailəsindən dəstək görən Nəzrin balanın ailəsi 5 nəfərdən ibarətdir. Atası İsmayılov Anar Xanlar oğlu özəl şirkət əməkdaşı, anası İsmayılova Elnarə isə evdar xanımdır. İki bacısından Ayan məktəbli, Nuray isə 4 yaşındadır.

Jurnalımız adından biz də Nəzrinə ən xoş diləklərimi bildirib, gələcəyinin parlaq olmasını ürəkdən diləyirik. Elm hər dildə birdir. Qoy Nəzrin bala da dəyişməz elm yolunda iri addımlarla irəiləsin. Yolun açıq, ümidlərin doğrulmuş olsun!

# İsmayılova Ayan





**“Bütün ölkələr üçün vahid universitet modeli ola bilməz. Hər bir universitet öz ölkəsinin ictimai həyatının üzvi hissəsi kimi formalaşmalıdır”**
***(Rabindranat Taqor)***

Elm inkişafın ön cəbhəsidir, mədəniyyət isə onun ictimai həyatda buraxdığı izdir deyiblər. Bu ifadədə böyük hikmət var. Elm olmasa dünyanın bütövlükdə inkişafı, dəyişərək yeni mərhələlərə keçid alması mümkün olmaz. Savadlı-təhsilli gələcəyin formalaşması da həmin cəmiyyətin elmə olan münasibətindən, elmə verilən dəyərdən asılıdır. Əgər bir cəmiyyət, ölkə öncə elmin inkişafına yatırım edib, onu dəstəkləmərsə, təhsilin keyfiyyətli sistemləşməsinə maraqlı olmarsa o ölkədə nə inkişafdan danışmaq olar, nə də onun təhsilli gələcəyindən. Gələcəyi xəyalən parlaq görmürlər, onu düşünərək planlı şəkildə parlaq olmasına çalışırlar. Ümumiyyətlə təhsil o qədər vacib şərtdir ki, insan daim onunla ucala, cəmiyyətdə özünə yer tapa bilər. Təhsilli gələcəyə verilən ən böyük dəyər zamanında istedadlı və çalışqan şagirdlərin tapılaraq üzə çıxarılması və təqdir olunmasıdır. Bu onların gələcəyi üçün bir stimuldur. Belə bir istedadlı və gələcəyini təhsilə bağlayan şagirdlərimizdən biri də Ayan İsmayılovadır.

İsmayılova Ayan Anar qızı 7 fevral 2009-cu ildə Bakıda anadan olub. İlk təhsil həyatına 2015 ci ildən başlayan Ayan hazırda 71 saylı tam orta məktəbin 4-cü sinif şagirdidir. İlk gündən aktivliyi və çalışqanlığı ilə seçilən Ayan hazırda siniflərində əlaçı şagirdlərdən biridir. Tədris olunan bütün fənnləri sevərək oxuyan Ayan Azərbaycan dili fənnini daha çox sevir. Çünki elinə və dilinə bağlı olan bu bacarıqlı qız mədəniyyətin və təhsilin öncə ana dilinə olan sayğıdan, qorunmasından başladığını yaxşı dərk edir. Elə buna görə də müəllim və şagirdlərin sevgisini qazanıb. Ən çox sevdiyi müəllimlər isə Sevil və Pərvanə müəllimdir. Dərsdən kənar asudə vaxtını da səmərəli keçirən Ayan İsmayılova üçün mütaliə sevilən bir məşğuliyyətdir. Bununla O, həm dünyagörüşünü artırır, həm də nitq qabiliyyətini püxtələşdirir. Arzusu da kiçik deyil. Orta məktəbi bitirdikdən sonra Tibb Universitetinə daxil olub gələcəyin həkimi kimi peşəkar mütəxəssis olaraq yetişməkdir. Elə onun bu arzusuna şərik olan ailəsi də daim onu dəstəkləyir və hər addımında yanında olur. Atası İsmayılov Anar xanlar oğlu “Komtec MMC”də Əməliyyat Departamentinin Texniki vəzifəsində çalışır. Anası İsmayılova Elnarə evdar xanımdır. İki bacısı var. İsmayılova Nəzrin və İsmayılova Nuray. Nurayın 4, Nəzrinin 8 yaşı var.

Şərafətli elm kim ona yiyələnərsə onundur. Elmə-biliyə yiyələnmək yolunda İsmayılova Ayana biz də redaksiyamız adından uğurlar diləyərək gələcəyin peşəkar həkimi kimi ona bu şərəfli peşənin qismət olmasını arzu edirik. Yolun açıq, səsin daim ucalardan gəlsin.



# Başirova Şahnaz Başir qızı



**“İnsanlar uzun müddət misi qızıla çevirmək arzusunda olublar. İndi elm misi elə şeylərə çevirir ki, qızıl ona həsəd aparır”**
***(Tur Xander)***

Hər bir elm dəqiq faktlara söykənir və illərlə araşdırma tələb edir ki, gəlinən nəticə rasional təfəkkür formalaşdırsın. Çünki təxmin və gümanlarla elmi fikir yürütmək və dəqiq faktlar əsasında danışmaq mümkün deyil. Çünki hər hansı bir elmin açarı sual işarəsidir. Bu suallara dorğu-düzgün, məntiqi-rasional təfəkkür sərgiləməklə ancaq cavab vermək olar. Bunun üçünsə oxumaq, oxumaq yenə də oxumaq lazım. Çünki peyğəmbərimiz də buyurub ki, beşikdən qəbr evinə qədər insan övladı oxumalı, öyrənməli və öyrətməlidir. Çünki bildiklərimiz, öyrəndiklərimiz bilmədiklərimizlə müqayisədə heç nədir. Fakt təsvir məqamında olan hadisədir, günümüzün də faktdı odur ki, indi dünya aləmini elmsiz-təhsilsiz təsəvvür etmək mümkün deyil. Artıq 21-ci əsr böyük elmi-inqilabı, texnoloji inkişaf əsrindədir. Ya sən inkişaf etməlisən, yəni oxumalısan, ya da geridə qalıb insan kimi yaşamaqdan məhrum olmalısan. Təbii ki, bunun üçün ölkənin yaratdığı əlverişli mühüt və idarəçilik sistemi də əsas götürülür. Bir sözlə təhsil məcburi sistemə keçməli və nəzarət olunmalıdır. Savadlı və bacarıqlı gənclər, şagirdlər daim diqqət mərkəzində olmalıdır. Bu günki yazımızın əsas diqqət mərkəzində olacaq şagirdi də Başirova Şahnaz Başir qızıdır. Şahnaz 2009-cu ilin avqustun 28-də Sabirabad rayonun Qalaqayın kəndində anadan olub. 2015-ci ilin tədris ilində məktəb həyatına başlayan Şahnaz hazırda təhsil aldığı H. Z.Tağıyev adına 6 saylı tam orta məktəbin 4-cü sinif şagirdidir. Təhsilinə məsuliyyətlə yanaşan Şahnaz hər zaman fəal və məsuliyyətli olması ilə seçilir. Ən sevdiyi fənn riyaziyyat, ən sevdiyi müəllimə isə Ramidə müəllimədir. Boş vaxtlarında kitab oxuyan Şahnaz gələcəkdə vicdanlı hüquq-mühafizə orqanı əməkdaşı olmaq arzusundadır. Atası bazarda iş adamı, anası isə gözəllik salonunda çalışır. Özündən bir yaş böyük Firuzə Başirova adında bacısı var. Hər iki bacı bir-birinə dəstək olmaqla gələcək həyatlarını da xoş görmək niyyətindədirlər. Biz də öz redaksiyamız adından hər ikisinə uğurlu gələcək və parlaq nəaliyyətlər arzulayırıq. Qoy ailəsi, məktəbi onlarla həmişə qürur duysun.

# Başirzadə Firuzə Başir qızı



**"Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz"**

**(Əbül Fərəc)**

Yer üzünün ən ali əşrəfi insan, insanın ən gözəl tərəfi isə onun ədəbi və mənimsədiyi bilgisidir. Elm və təhsil bir cəmiyyətin quruculuğunda, ölkənin idarəçiliyində rol oynayan əsas faktorlardan biridir. Təhsilsiz bir millətin gələcəyi qaranlıq göründüyü kimi, onun xilası da uzun zaman tələb edən çətin bir prosesdir. Hamımıza məlumdur ki, 21-ci əsr dünyamızın ən inkişaf etmiş ölkələri öz nüfuzlu adlarına görə yalnız elmə, keyfiyyətli təhsil sistemlərinə minnətdardırlar. Ötən əsrlərin gerçək mənzərələri ilə günümüzün sürətli inkişafı məhz elmin yeni texnoloji eraya daxil olması ilə əlaqədardır. Bu inkişafın əsas səbəbkarları da yuxarıda qeyd etdiyimiz kimi yer üzünün ən ali əşrəfi olan insanlardır. Daha doğrusu intellektual beyin sahibləri. Məhz ağıllı idarəçilik, ədalətli sistem öncə öz vətəndaşına dəyər verməli və əsas kapitalı insanını sanmalıdır. İnsana qoyulan kapital ölkəni daha əmin əllərə etibar etməklə onun gələcəkdəki mövcudluğunu təmin edir. Odur ki, inkişaf etməkdə olan dünya ölkələri də bundan ibrət götürməli və təhsil sisteminin keyfiyyətinə sahib çıxmalı, güclü nəzarət altında saxlamalıdır. Üstəlik müxtəlif təhsil ocaqlarında təhsil alan şagirdlər daim diqqət mərkəzində saxlanılmaqla onları müxtəlif həvəsləndirici üsullarla təhsilə bağlamalıdır. Elə bu jurnal da eyni məqsədlə yaradılaraq ölkəmizin müxtəlif ümumtəhsil ocaqlarında təhsil alan bacarıqlı və istedadlı şagirdləri bütün respublikaya tanıtmaq və onu diqqət mərkəzində saxlamaqdır. Onlardan biri də Başirzadə Firuzə Başir qızıdır. O 2008-ci ilin fevralın 19- da Sabirabadda anadan olub. Məktəb həyatına 2014-cü ildən başlayan Firuzə hazırda təhsil aldığı H. Z. Tağıyev adına 6 saylı tam orta məktəbin 5-ci sinif şagirdidir. Bütün dərslərinə məsuliyyət və hazırlıqla yanaşan Firuzənin indiyə qədər bir sıra uğurları olub. Dərslərini əla qiymətlərlə oxuması və bacarıqlı rəqs qabiliyyətinə görə 2 fəxri fərmanı var. Ən sevdiyi fənn həyat bilgisi, ən sevdiyi müəllimi isə Ruhiyə müəllimədir. Asudə vaxtlarında da kitabdan ayrı düşməyən Firuzə mütaliəni özünə bir məşğuliyyət seçib. Rəqs etmək də onun üçün mənəvi bir zövqdür. Gələcəkdə isə özünü ən yaxşı peşə olaraq müəllim kimi görür. Ailəsini sevimlisi olan Firuzənin atası iş adamı, anası gözəllik ustasıdır. Özündən bir yaş kiçik Şahnaz Başirova adında bacısı var.

Adı kimi özü də gözəl olan bu istedadlı və ağıllı qızımıza uğurlar arzulayaraq ona gələcək həyatında uğurlara doğru inamla irəliləməyi diləyirik.



# Məhəmmədəli Abuşov







**"Elmin cövhəri qızıl kimidir, köhnəldikcə təzələnir"**

***(Əvhədi Marağayi)***

Elmin hüdudları üfüqü xatırladır; nə qədər yaxınlaşırsansa, o qədər uzağa çəkilir. Çünki daim yenilənməkdə olan elm öz gerçək faktları ilə insanları təəccübləndirməkdədir. Bu təbiətin qanunvericiliyinə uyğun olaraq dəyişir. Həyat davam etdikcə, onu öyrənən bütün elm sahələri yenilənir və üfüqün daha uzaq istiqamətlərinə doğru yol alır. İnsan qılıncının kəskinliyi ilə deyil, ağlının itiliyi, zəkasının dərinliyi ilə seçilər, qəhrəman ola bilər. Çünki fiziki güclə, ağıl gücünün müqayisəsi düzgün olmadığı kimi, insanların bunu qarşıdurma edib aralarındakı fərqi belə müzakirəyə çıxarması yalnışdır. Hər bir millətin, hər bir xalqın tərəqqisinin və fəaliyyətinin başlıca amili elm və əxlaqdır. Əsas prioriteti bu istiqamətə yönəltsək bizim də ölkəmizin təhsilli gələcəyi daha parlaq ola bilər. Bu sahədə isə əsas məsuliyyət müəllim və şagird kollektivinin üzərinə düşür. Belə məsuliyyətli şagirdlərimizdən biri də Məhəmmədəli Abuşov Tural oğludur. 2008-ci ilin noyabrın 16-da Bakı şəhərində dünyaya göz açan Məhəmmədəli 2015-ci ilin tədris ilində həyatının yeni mərhələsinə qədəm qoyur, yəni 51 saylı tam orta məktəbin birinci sinfinə yollanmaqla təhsil-elm həyatına başlayır. Hazırda həmin məktəbin 4-cü sinif şagirdi olan Məhəmmədəli dərslərini yaxşı və əla qiymətlərlə oxuyur. Xaricə dilə və hərbi sahəyə olan dərin marağından dolayı məktəbi bitirdikdən sonra sənədlərini bu iki sahə arasında seçim edərək qurmağı planlaşdırır. Vətənpərvərliyi ilə seçilən bu yeniyetmənin hərbiçiliyə gedən yolda əsas məqsədi vətəndaşı olduğu ölkəsinə, xalqına sahib çıxıb, onu qorumaqdır. Peşəkar tərcüməçi yaxud hərbiçi olmaq istəyir. Dərsdən əlavə məşğuliyyət kimi isə kitab oxuyur, şahmat oynayır və üzgüçülüklə məşğul olur. Ailə üzvülərinə gəldikdə isə atası Tural Abuşov Yusif oğlu hazırda işləmir. Anası Samirə Abuşova dərziçiliklə məşğuldur. 7 yaşında Zeynəb Abuşov adında bir bacısı var ki, o da birinci sinif şagirdidir. İnsan ancaq öyrənməklə ucalar deyib dahilərimiz. Odur ki, öyrənərək ucalmaq istəyən bu şagirdimizə kollektivimiz adından qarşıdakı ömür yolunda uğurlar, keyfiyyətli təhsil və unudulmaz həyat nəaliyyətləri arzu edirik.



# Ağamalızadə Xanlar





**"Elmdə heç bir ideya əhkam deyil; hər bir adam ən məşhur alimin ən çox yayılmış ideyasını da istənilən vaxt yenidən yoxlamaq səlahiyyətinə malikdir"**

***(Əbu Turxan)***

Yaşamağa bir dəfə gəldiyimiz bu həyatın insan üçün əsas məqsədi özünüdərk, özünü kəşfdir. Amma özünü kəşf edə bilməyən insan bu həyatı yaşasa da onun əsas qayəsindən, əsas hədəfindən xəbərsiz olacaq. Biz insanlar bu dünyaya qidalanmaq üçün deyil, yaşamaq üçün gəlmişik. Elm təşkilatlanmış bilikdir. Bu biliyi hissə-hissə mənimsəyib həyatını tam başa vurmalısan. Elm dəryasında bir damla olmaq hər insan üçün bir fəxarət ola bilər, nəinki cahil olub ömrünü boşa verməklə öyünmək. Elm təbiət kitabını oxuyur və öyrəndiklərini təbiətin öz üzərində sınaqdan keçirir. İnsan da elmi öyrəndikcə təbiəti və onunla necə rəftar qaydasını öyrənmiş olur. Amma insanın öyrəndiyi və bildiyi gerçəklər bilmədiyinin müqabilində bir heç nədir.

Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər ifadəsində də böyük həqiqət var. Bir şeydən bəhrələndiyin sənin qazancın, lağ edib dərk etmədiyin isə utancın ola bilər. Elə bu qayə ilə həyatı ömrünün uşaq çağlarından yaşamağa start verən Ağamalızadə Xanlar Elnur oğludur. O 2006 -ci il iyunun 17-də Bakı şəhərində anadan olub. Evin ilk övladı olan Xanlar 2012-ci ilin tədris ilində məktəb həyatına qədəm basmaqla təhsil həyatına start verib. Hazırda Nəsimi rayonu 159 nömrəli tam orta məktəbin 7-ci sinifində təhsil alan Ağamalızadə Xanlar öz savad və tərbiyəsi ilə digər şagirdlərə nümunədir. Dərslərinə məsuliyyətlə yanaşaraq həmişə yüksək bilik və savad mənimsəməyə can atan istedadlı qəhrəmanımızın dəqiq elmlərinə rəğbəti xüsusidir. Ana dilinə olan sevgi və sayğısı isə heç də ondan geri qalmır. Odur ki, ən sevdiyi fənnlər riyaziyyat və Azərbaycan dilidir. Hər iki fənn üzrə keçirilən kurs imtahanından 3 dəfə riyaziyyat üzrə 1-ci yer, Azərbaycan dili üzrə isə 1 və 2-ci yeri tutmaqla bunu bir daha sübutlayıb. Şahmat üzrə isə 4-cü dərəcə sahibidir. Elə asudə vaxtını da səmərəli keçirməyə can atır. Sevdiyi fənndən dolayı müxtəlif növ məntiq testləri üzrə işləməyi, çoxlu mütaliə etməyi sevir. Gələcək peşəsi arzusunda isə iqtisadiyyatı seçib. Görünür, iqtisadiyyatçı olmaqla həm özünün, həm də məktəbinin başını daim ucaltmaq istəyir. Kiçik, ancaq xoşbəxt ailəsində atası Elnur Ağamalıyev gəmiçi, anası Günel Əsədova evdar xanımdır. Yeni dünyaya gələn bir qardaşı var.

Biz də jurnalımızın heyyəti adından ona davam edən orta təhsilində uğurlar və gələcək həyatında qarşısına qoyduğu bütün məqsədlərə öz güclü iradə və bacarığı ilə çatmağı diləyirik. Hədəfin gələcəyindir, gələcəyinin uğurlu olması diləyi ilə!



# Mehdiyev Əvəz Yaşar oğlu



**"Övladlarınızı dövrünüz üçün deyil, onların dövrü üçün yetişdirin"**

***(Hz. Əli ə.s)***

Dünyada milyardlarla insan yaşayır. Onların müxtəlif dilləri, adət-ənənələri var. Lakin, bəzi qəbul edilmiş mütləq məsələlər vardır ki, milliyyətindən, kimliyindən aslı olmayaraq hamı üçündür. Bəs bu dəqiqliklər necə yarandı? Bəli, bu dəqiqlikləri elmin müxtəlif qolları təyin edir. Dünyanı elmsiz, təhsilsiz təsəvvür etmək belə qorxuncdur. İnsanın həyatda ən qüvvətli dayağı vaxtında öyrəndikləridir. Azərbaycanda gənclərin təhsil alması üçün dövlətimiz tərəfindən şərait yaradılsa da zamanla bunun təkmilləşməsi və yüksək səviyyəyə çatdırılmasına ehtiyac var. Çünki 21-ci əsr elm-sivilzasiya əsrdir ki, sürətlə inkişafın ən yeni mərhələrini üstələyir. İndi ölkəmizdə demək olar ki, öyrənməyən, oxumayan insan olmasa da, amma dünyada ad qoyacaq elm insanlarına ehtiyacımız var. Onları isə düzgün yetişdirmək və zamanında aşkarlamaq lazımdır.

Bəzi şəxslər öz xüsusi istedadlarına görə seçilirlər ki, jurnalımız sayəsində onları tapıb hər yazıda işıqlandırmağa çalışırıq. Haqqında danışacağımız Əvəz bala da bacarığı və qabiliyyəti ilə fərqlənən şagirdlərdəndir.

Mehdiyev Əvəz Yaşar oğlu 3 Yanvar 2007-ci ildə Şirvan şəhərində doğulub. 2013-cü ildə Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbin birinci sinfinə gedən Əvəzin təhsil həyatı da məhz oradan başlamışdır. Hazırda Əvəz haqqında danışılan məktəbin 6-cı sinif şagirdidir.Sinif əlaçısı olan kiçik dostumuz,hər dəfə sınaq imtahanından yüksək nəticələr toplayaraq, valideynlərini sevindirir. Riyaziyyat fənninə xüsusi marağı olan Əvəz, ən çox sevdiyi müəllimi isə Məlahət müəllimdir. Əvəz təkcə dərslərində deyil, asudə vaxtlarında məşğul olduğu idmandan da uğur və nəaliyyətlər qazanmışdır. Hazırda idmanın karate və üzgüçülük növləri ilə məşğul olur. Dostumuzun ən böyük xəyalı isə gələcəkdə idmanın karate növü üzrə müəllim-məşqçi olmaqdır. Ümid edirik ki, Əvəz bu arzusuna çatacaq. Ailənin tək oğul övladı olan Əvəz istənilən sahəyə gedən yolun elmdən-təhsildən keçdiyini yaxşı dərk edir. Ona hər zaman dəstək olan ailəsi 4 nəfərdən ibarətdir.

Atası Mehdiyev Yaşar 1973-cü il təvəllüdlüdür. Sürücülük məktəbində təlimçi, metodist kimi çalışır.

Anası Mehdiyeva Günay 1982 -ci ildə dünyaya gəlib. Evdar qadındır.

Bacısı Mehdiyeva Aynur Yaşar qızı 2005- ci ildə doğulub. Aynur, 8-ci sinif şagirdidir.

Redaksiyamızın rəhbərliyi və işçi heyyəti adından Əvəzi səmimi qəlbdən təbrik edirik. Arzu edirik ki, ürəyində olan bütün arzu, istəkləri yerinə yetsin. Həyatın çətinliklərinə qarşı həmişə möhkəm və səbirli olsun.

# Tunar Novruzlu



Bilik xəzinədir. Elm, bilik o qədər ilham mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər. Öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz ömür ömür deyil. O adam məharətlidir ki, zox əziyyət zəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir, hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır. Biz elmi-texniki tərəqqi əsrində yaşayırıq. Bu əsr elə bir əsrdir ki, bu zamanda cəmiyyətin inkişaf templəri, onun iqtisadi inkişafı birbaşa olaraq bilik və elmdən asılıdır. Bilik bir gücdür. Elm öyrənmək böyük bir zəhmətdir. J.J.Russo demişdir: "Döyüşdə silah lazım olduğu kimi, həyatda da bilik lazımdır." Tunar Novruzlu da bunun fərqini dərk edən ağıllı şagirdlərdəndir.

Novruzlu Tunar Namiq oğlu 1 iyun 2010-cu ildə Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açmışdır. 2015-ci ildə Tunarın xüsusi istedadı və bacarığı olduğunu nəzərə alaraq 5 yaşında onu Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin 1-ci sinfinə qəbul ediblər. Yaşının az olmasına baxmayaraq Tunar öz bilik və bacarığı ilə sinif yoldaşlarından fərqlənmiş, dəfələrlə məktəb rəhbərliyi tərəfindən fəxri fərman və diplomlarla təltif olunmuşdur. Təhsil Nazirliyi tərəfindən təşkil olunmuş test sınaq imtahanlarında iştirak etmiş və maksimum 700 bal toplamışdır. Məktəbin müəllim kollektivinin dərin hörmətini qazanmışdır. Tunarın ən zox sevdiyi fənn riyaziyyat və ingilis dili fənnidir. İngilis dilindən keçirilən olimpiadalarda 1-ci və 2-ci yer tutaraq medal və diplomla təltif olunmuşdur. Əldə etdiyi bütün bu uğurlara görə sinif müəllimi Məhsəti müəlliməyə, direktor muavini Arzu müəlliməyə və məktəbin direktoru Namiq Məmmədovaya minnətdarlığını bildirir. Körpə yaşlarında idmana xüsusi marağı olan Tunar idmanın qaydasız döyüş növü ilə məşğul olmuşdur. Yarışlarda rəqiblərinə qalib gələrək həvəsləndirici yer tutmuşdur. Bu uğurların əldə edilməsində xüsusi əməyi olan idman ustası Xəyal Abdullayevə borclu olduğunu bildirir. 2018-ci ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçən Tunar təhsilini Səbail rayon 51 saylı tam orta məktəbində davam etdirir. Tunar öz üzərində işləyir və yeni-yeni uğurlara imza atır, bu yolda ona dəstək olan sinif müəlliməsi Səkinə müəlliməyə və rus dili müəllimrəsi Gülbəniz müəlliməyə də minnətdarlığını bildirir. Tunar boş vaxtlarını əlavə ədəbiyyat oxumaqla komputerdə araşdırmalar aparmaqla məşğul olur. Valideynlərinin fəxri olan Tunar ailəsinə çox bağlıdır. Atası Novruzov Namiq Bakı şəhəri Baş Gömrük idarəsində işləyir. Anası Novruzova Turanə komputer üzrə müəllim işləyir. Qardaşı Novruzlu Novruz məktəblidir, 6-cı sinif şagirdidir. Tunar istedadı və çalışqanlığı ilə sinif yoldaşlarından fərqlənir. Tunar balamızın arzusu gələcəkdə baş prokror olmaqdır. o, bu istəyi özündə gerzəkləşdirmək arzusundadır. Biz də öz jurnalımız adından Tunar balamıza gələcək həyat yolunda bol-bol uğurlar arzu edir, istədiyi peşəyə yiyələnməsini diləyirik. Səsin hər zaman ucalardan gəlsin!



# Nuray Hüseynova



**"Dünyanın hər yerində həqiqi hökmdar olan elm vaxtaşırı öz paytaxtını dəyişmiş, gah Şərqdən Qərbə, gah da Qərbdən Şərqə köçmüşdür"**

***(Cəlaləddin Əfqani)***

Təhsil oxumaq nəticəsində qazanılan biliklərin məcmusudur. Təhsil sözü özündə elm, maarif və əqli inkişafı ehtiva edir. Təhsil insanlığın inkişafının rəhni olmaqla yanaşı, insanın fitrətindən irəli gələn bir məsələdir. Təhsil həm biliklərin qazanılması və həm də əldə edilən həmin bilgilərin insanlara ötürülməsi prosesidir. Başqa ifadə ilə desək, təhsil öyrənmək və öyrətməkdir. Bu proses olmadan cəmiyyətin inkişafı məsələsi müzakirə mövzusu ola bilməz. Təhsil insanın həm fərdi inkişafına, həm də sosial müstəvidə tərəqqiyə nail olmasına imkanı verir. Bu imkanı və tərəqqini dərk edib qəbullanan təhsilsevər qəhrəmanlarımızdan biri də Nuray Hüseynova Valeh qızıdır. O bu yazımızın qəhrəmanı olmaqla haqqında təhsilə və elmə olan maraq və bilgisini oxucularımızın diqqətinə çatdıracağıq. O, 16 aprel 2008-ci ildə paytaxtda doğulub. 2015 ci ildə şəhər 4 nömrəli tam orta məktəbə yollanaraq təhsil həyatına ilk qədəmlərini qoyub. Elə əvvəldən təhsilə, dərslərinin hazırlığına məsuliyyətlə yanaşan balaca Nuray hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Ən çox sevərək öyrəndiyi fənnlər isə riyaziyyat, ədəbiyyat və Azərbaycan dilidir. Elə şəxsinə hörmətlə yanaşdığı sevimli müəllimləri isə Qafarova Fərqanə, Məşurə Əmiraslanova və Aqil müəllimdir. Uğur və nəaliyyətlərinə gəldikdə isə ingilis dilindən və Azərbaycan dilindən yüksək göstəricilərinə görə 1-ci yeri tutub. Əsas məşğuliyyət və istirahəti isə kitab oxumaq, mənalı, hikmətli şerlər əzbərləmək və sevərək film izləməkdir. Şirin və mehriban təbiəti ilə doğmalarının birincisi və bir incisi olan Nuray həm də zəhmətkeş qızdır. Anasına hər zaman kömək edir, atasının sözünə qulaq asır. Anası evdar qadın, atası sürücü işləyir. Birinci sinifdə oxuyan bir qardaşı var. Orta məktəbi uğurla bitirdikdən sonra gələcəkdə iqtisadiyyatçı olmağı qarşısına əsas hədəf qoyan Nuray balaya böyük uğurlar və təhsili müddətində bol-bol mükafat və birinciliklər arzulayırıq. Uğurun bol, sevincin sonsuz olsun!

# Tağıyev Yaqub








**Qüvvət elmdədir başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz.**
**Hər uca zirvədən bilin ki, fəqət**
**Alimin rütbəsi ucadır əlbət.**

"Bilik-başa tac, var-dövlət boyuna boyunduruqdur" atalar sözü ilə yazımı bitirirəm və bütün gənclərimizin bəzəyinin daş-qaş, var-dövlət yox, bilik olmasını arzulayıram".

Elm və təhsil haqqında daha dəyərli və daha cəlbedici fikirlər, filosofsayağı yanaşmalar və dəyərli ifadələr ola bilər. Amma gərək bunu oxumaq naminə deyil, dərketmək naminə oxuyub tətbiq etmək lazımdır. Zamanla oxumağın əhəmiyyətini, təhsilin dəyərini insan övladı dərk edir, çünki təhsilsiz həqiqətən həyatda uğurlu olmaq və öz layiqli mövqeyini tutmaq çətindir. Oxumaq, təhsil almaq dedikdə isə təkcə diplom almaq, qiymət naminə dərsləri əzbərləmək deyil, sözün əsl mənasında təhsili həyat qayəsinə, həyat devizinə çevirməlisən. Çünki həyatın boyu bunun fərqində olacaqsan. Oxumadınsa peşman, oxudunsa özünü şanslı hesab edəcəksən. Xüsusilə çalışmaq lazımdır ki, sevdiyin ixtisasa , özünü gördüyün sənətə, istedad və qabiliyyətinin imkan verdiyi peşəyə yönələsən. Çünki həyatı boyu insan övladı etdiyi iki səhvin ailə qurmaq və peşə seçiminin əziyyət və zəhmətini çəkməli olur. Jurnalımızın da əsas qayəsi təhsil olduğundan bütün fərqlənən şagirdləri seçib təqdim etməklə yanaşı, həm də onları həvəsləndirib həyatını qurmağda yardımçı olmaq istəyirik. Belə seçmə şagirdlərdən biri də Tağıyev Yaqub Polad oğludur. Onun təhsil nəticələri və istedadlı tərəfləri ilə bu yazıdan tanış olmaq mümkündür.

Tağıyev Yaqub Polad oğlu 3 iyul 2008-ci ildə Tovuz rayonunda anadan olub. O, 2015-ci ildə 51 saylı tam orta məktəbin 1-ci sinfində elm həyatına başlamışdır. Yaqub hal -hazırda elə həmin məktəbin 5-ci sinif şagirdidir. O, sinifdə ən qabaqcıl və fəal şagirdlərdən biridir. Az yaşlı olmağına baxmayaraq Yaqub çalışqan şagirdlərdən biridir. O, bütün fənləri sevərək oxuyur. Yaqub müəllimlərin sevgisini və rəğbətini qazanmağı da bacarıb. Ən çox sevdiyi müəllimə Mahirə müəllimdir. Yaqub asudə vaxtlarında şəkil zəkməyi, dərs oxumağı çox sevir. Elə müsahibə zamanı Yaqubun çoxlu və müxtəlif mövzularda olan yaradıcı əl işləri diqqətimizi cəlb etdi. Və həmin şəkillər arxasında balaca qəhrəmanımızın öz portreti olsun deyə şəkilini də çəkdik. Rəngarəng fırçaların hesabına maraqlı mövzular işləyən Yaqub rəngləri və onun boyalarda həkk olunan rəsmlərini çox sevir. Və boyalarla təbiətin müxtəlif mənzərələrini öz əsərlərində canlandırır. İncə dünyası ilə istənilən mövzuda rəsmlər yaratmaq məharəti onu digər həmyaşıdlarından fərqləndirir. Yaqubun arzusu gələcəkdə mühəndis olmaqdır. Çox güman yüksək əl qabiliyyəti olan Yaqub mühəndis olmaqla hər şeyi dəqiq və yerində cızmağı bacaracağından özünə bunu gələcəyin sevimli peşəsi kimi seçib. Yaqub balamızın ailəsi 6 nəfərdən ibarətdir.

Atası Tağıyev Polad Yaqub oğlu, usta işləyir.
Anası Abullayeva Afaq, evdar xanımdır.
2 qardaşı və 1 bacısı var.

Biz də öz redaksiyamız adından Yaqub balamıza bol-bol uğurlar arzu edir, valideynlərinin, müəllimlərinin layiqli övlad olmağını diləyirik. Yolun açıq olsun, səsin daima ucalardan gəlsin!



# Nəzrin Hacızada





**"Yaxşı təhsil özünə və ətrafındakılara verdiyin ən gözəl hədiyyədir"**

***Mahtab Narsimhan***

Bir xalq yalnız savadlı cəmiyyəti,inkişaf etmiş elmi ilə qürur duya bilər. Yalnız savadlı cəmiyyət ilə irəli getmək, uğurlara nail olmaq olar. Elm həqiqəti öyrənir, həyatın qanuna uyğunluqlarını, təbiətin sirrlərini bir-birinin ardınca kəşf edir. İnsan yalnız elmi, təhsili, hərtərəfli dünyagörüşü ilə başqalarından fərqlənə bilər. Məhşur Azərbaycan şairi N.Gəncəvi hələ 10 əsr bundan əvvəl elmin gücü haqqında deyirdi:

**Əmr etdi, verildi fərman,**
**Alimdir gözümdə ən əziz insan.**
**Elmlə, hünərlə başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz.**

Şairin fikrincə yalnız insan elmin gücü ilə qalib gəlib,uğur qazana bilər.

Bu hekayəmizin qəhrəmanı elm öyrənməyə olan xüsusi marağı ilə müəllimlərin diqqətini çəkməyi bacaran Nəzrindir. Nəzrin Hacızadə Yasin qızı 2011 ci ildə yanvar ayının 19-da Bakı şəhərində dünyaya göz açmışdır. Nəzrin 2017-ci ildə 10 nömrəli Zəngilan rayon tam orta məktəbinin 1-ci sinifində təhsil həyatına başlamışdır. O, hazırda həmin məktəbin 2-ci sinifində təhsil alır. Nümunəvi şagird olan Nəzrin bir neçə dəfə bilik yarışmalarında iştirak edərək diploma layiq görülüb. Müəllimlərinin sevimlisi olan Nəzrin bütün fənnləri yaxşı oxuyur,lakin ən sevdiyi fənn həyat bilgisi fənni, ən sevdiyi müəllim isə qayğıkeş və savadlı Könül müəllimdir. Nəzrinin ən böyük arzusu təhsil həyatını uğurla başa vurub müəllim olmaqdır. Nəzrin boş vaxtlarını da faydalı şəkildə dəyərləndirir, dərslərini təkrarlayır. Nəzrin dərslərində əlaçı olmaqla yanaşı rəsmlə də maraqlanır, boş vaxtlarında müxtəlif rəsmlər çəkir.




Nəzrinin ailəsi 4 nəfərdən ibarətdir. Atası Yasin Hacıyev sürücü işləyir, anası Əliyeva Lalə evdar xanım,qardaşı Yusif Hacızadə isə məktəblidir və Zəngilan rayon orta məktəbin 3-cü sinifində təhsil alır.

Biz də redaksiyamız adından Nəzrinə bol-bol uğur və parlaq gələcək arzu edirik. Yolun daim açıq olsun.

# Yusif Hacızada






**“Nursuz göz kimidir elmsiz ürək,**
**Nadan insanlıqdan uzaqdır gerçək”**
**(Əvhədi Marağayi)**

Bilik- insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında məlumat toplusudur. Bilik mühəndisliyi baxımından bilik formalaşdırılmış informasiyadır. Bilik praktiki fəaliyyət və peşəkar təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub (prinsipləri, əlaqələri, qanunları) həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir. Yusif Hacızadə də bu həllə mütəxəssis kimi vasitəçi olmaq istəyənlərdəndir. Bu yazı onun haqqındadır.



Hacızadə Yusif Yasin oğlu 7 yanvar 2010-cu ildə Mingəçevir şəhərində doğulub. O, 2016-cı ildə Zəngilan rayon 10 nömrəli tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Yusif hazırda elə həmin məktəbin 3-cü sinif şagirdidir. Yusif çox savadlı və fəal şagirdlərdən biridir. Ən çox sevdiyi fənn riyaziyyat və ingilis dili fənnidir. Yusif məktəbə gəldiyi ilk gündən müəllimlərin sevimlisinə çevrilməyi bacarmışdır. Ən çox sevdiyi müəllimlər isə İlhamə müəllim və Mehriban müəllimdir. Məsuliyyətli bir şagird kimi Yusif üzərində əməyi olan bütün müəllimlərinə minnətdarlığını bildirir. Çünki o bilir ki, bir insanın formalaşmasında müəllim mühüm rol oyanır. Əgər müəllim öz peşəsini ləyaqətlə yerinə yetirirsə demək ona hörmət və sayğı qaçılmazdır. Onun arzusu gələcəkdə vicdanlı və güclü polis olmaqdır. Çünki vətəninin təhlükəsizliyini, xalqının rifahını düşünərək bunu arzulayır. Valideynlərinin fəxri olan Yusif balamızın ailəsi 5 nəfərdən ibarətdir. Atası Hacıyev Yasin Yusif oğlu, sürücüdür. Anası Əliyeva Lalə, evdar xanımdır. Bacısı Hacızadə Nəzrin məktəblidir. 2-ci sinif şagirdidir. Hacızadə Pərviz adlı qardaşı da var.

Təhsil - istənilən həyat situasiyalarında düzgün hərəkət etmək qabiliyyətidir. Bu qabiliyyətdən Yusifə də arzulayaraq gələcək həyatında ona uğurlar arzu edirik.



# Tağıyev Yusif







**Nursuz göz kimidir elmsiz ürək,**
**Nadan insanlıqdan uzaqdır gerçək.**
***(Əvhədi Marağayi)***

Kamil insan kimi yetişmək mükəmməl olduğu qədər çətin və zəhmət tələb edən bir prosesdir. Elə bir proses ki, ömrünün illərini oxumaq, öyrənmək, araşdırmaq və tətbiq etmək kimi mərhələləri hissə-hissə addımlayıb keçməlisən. Hər öyrənilən bilik insanın tükənməz sərvəti, hər öyrədilən bilik isə insanı müdrükləşdirən bir keyfiyyətə çevrilir. Deyirlər niyyət elm ilə əməl arasında bir vasitədir. Odur ki, niyyəti kamillikdən keçənlər elm və əməl arasında vasitəçi rolunu dərk etməlidir. Çünki oxuduğuna əməl etməyən insan məşəl gəzdirən kora bənzər. Nə qədər bilikli olursan ol, əgər bildiyindən nə özünə, nə ətrafına, mənsub olduğun cəmiyyətə faydan dəymirsə onda o bilikdən, elmdən danışmağa dəyməz. Yəni elm davamlı araşdırma və geniş aspektli tətbiq, yoxlanış tələb edir ki, onun faydası böyük, yararlananları çox olsun. Elmlə-biliklə tanış olmağa çalışan məktəbli qəhrəmanlarımıza həsr olunan bu jurnalın növbəti yazısında Tağıyev Yusif Polad oğlu haqqında danışacağıq. O da təhsilin qədrini bilən və dərslərini yaxşı oxumağa çalışan məktəblilərimizdəndir.

Yusif Tağıyev 2011-ci ilin avqustun 3-də Tovuz rayonunda sadə bir ailədə doğulub. 2017-ci ildə isə həyatının ən önəmli anına, yeni təhsil həyatına atılıb. Hazırda 51 saylı tam orta məktəbin 2a sinif şagirdidir. Sinifdə səliqəli və məsuliyyətli olması ilə seçilən balaca Yusif dərslərini yaxşı və əla qiymətlərlə oxuyur. Ən sevdiyi fənnlər Azərbaycan, rus dilləri və musiqidir. Ən sevdiyi müəllimləri isə məhz Gülbəniz, Təranə və Zəruyə müəllimdir. Dərsdən əlavə asudə vaxtlarında kitab oxuyur, əyləncəli uşaq verilişlərini izləyir. Zəhmətkeş və sadə ailənin övladı olan Yusifin atası Tağıyev Polad Yaqub oğlu ustadır, anası Abdullayeva Afaq Əzizağa qızı evdar xanımdır. Tağıyev Yaqub və Tağıyev Bünyamin adlı iki qardaşı və Tağıyeva Ülkər adlı isə bir bacısı var. Abdullayeva Ülkər adlı nənə də onun ailəsinin ən sevimli üzvlərindəndir.

İnsan ancaq öyrənməklə ucala bilər. Elə bu fikirlə ucalmaq niyyətində olan Yusif balaya redaksiyamız adından uğurlar və parlaq gələcək arzulayırıq. Gələcəyini hansı sahədə seçərsə seçsin əsas kamil bir sənət bilicisi, böyük şəxsiyyət olsun.

# Əhməd Hüseynov



**"Qədimdə insanlar elmi kamilliyə yetmək naminə öyrəndikləri halda, bu gün onu dünyanı fəth etmək naminə öyrənirlər"**

***(Konfutsi)***

Qədim zamanlara nisbətən, elmin inkişafı müasir şəraitdə daha asandır. Elmi nəaliyyətlər nəticəsində kompüter erasına qədəm qoymuşuq. Azərbaycanda da bu kimi texnoloji yeniliklərin tətbiqi təhsilin inkişafına gətirib çıxarır. Məktəblər yeni texniki avadanlıqlarla təchiz olunur. Bunlar hamısı dövlətin müəyyən etdiyi strategiyaya əsasən həyata keçirilir.

Məlumdur ki, savadsız cəmiyyət heç kimə lazım deyil. Hazırda da dövlət savadlı kadrların hesabına iqtisadi, hərbi və elm sahəsində irəliləməyi qarşıya məqsəd qoyub. Yalnız savadlı, təhsilli gənclərin hesabına bu sahələrdə uğurlar qazanmaq, beynəlxlaq arenada Azərbaycanı layiqincə təmsil etmək mümkündür. Savadlı cəmiyyətin yetişməsində ən böyük rol müəllimlərin üzərinə düşür. Müəllimlər öz növbəsində şagirdləri daima elm öyrənmək üçün yetişdirməlidirlər. Texnologiyanın inkişafı ilə əlaqədar olaraq artıq belə şagirdlərin sayısı günü-gündən artır. Belə şagirdlrə misal olaraq Əhmədi göstərə bilərik.

Əhməd Hüseynov Nəcməddin oğlu 9 avqust 2011-ci ildə Bakı şəhərində dünyaya göz açmışdır. O, 15 sentyabr 2017-ci ildə Fizuli rayon 1 saylı tam orta məktəbin 1-ci sinifində oxumağa başlamışdır. Əhməd hazırda həmin məktəbin 2-ci sinifində təhsil alır. O,öz tərbiyəsi,nümunəvi davranışı ilə tanınır. Ailəsinin və müəllimlərinin sevimlisi olan Əhməd dərslərində əlaçıdır. Onun ən sevdiyi fənnlər Azərbaycan dili və ingilis dilidir. Əhmədin ən çox sevdiyi müəllimləri isə Nigar müəllimə və Şəhla müəllimədir.

Əhmədin ailəsi 4 nəfərdən ibarətdir: atası, anası, qardaşı və Əhməd.

Elm yolu çətin və keşməkeşli olduğu qədər bu yolu getmək, addımlamaq özü böyük şərəfdir. Bu yolda indidən addımlayan Əhmədə redaksiyamız adından uğurlar və böyük nəaliyyətlər arzulayırıq. Yolun açıq, bəxtin parlaq, elmin qüvvətli olsun.



# Gözəlsoy Elay



**"Bütöv elm kontekstinə salınmamış ayrıca bir ideya, nə qədər dərin olsa belə, hələ elmi bilik sayıla bilməz"**

**(Əbu Turxan)**

Təhsil dedikdə elm, maarif, əqli inkişaf nəzərdə tutulur. Hər bir insan yaşadığı həyatdan istər-istəməz təhsil alır. İnsan kitab oxuyursa, televizorda hər hansı bir verilişə baxırsa, film izləyirsə bu artıq öyrənmək deməkdir. Bu dünyada insanlar təhsildən uzaq düşdüklərinə görə, elm və öyrənməyə az üstünlük verdiklərinə görə günümüzdə öz rahatlıq və xoşbəxtliklərini itiriblər, həyatda öz mövqelərini tapa bilməyiblər. İnsan və təhsil məfhumları ayrılmazdır. İnsan bədənində gün ərzində nə qədər hüceyrələr dəyişilir, hüceyrələr dəyişilməzsə insan ölər. Bunun kimi təhsil sistemi də daim yenilənməlidir. İnsan ölənə qədər daim təhsilini yeniləməlidir. Hətta belə bir kəlamı var peyğəmbərimizin : "Beşikdən qəbrə qədər oxumaq".

Jurnalın bu yazısının qəhrəmanı Gözəlsoy Elaydır. Elay Gözəlsoy Nurəddin qızı 2010-cu ildə fevral ayının 19-d Bakı şəhərində doğulub. O, 2016-cl il sentyabr ayının 15-də Ağdam rayon 32 saylı tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Elay hazırda həmin məktəbin 3-cü sinifində təhsilini davam etdirir. Elay hər zaman dərslərinə hazırlığı, nizam-intizamı,məsuliyyəti və tərbiyəsi ilə daim öndə olub. Elayın ən çox sevdiyi fənn riyaziyyat,ən çox sevdiyi müəllimi isə Saray müəllimdir. Elay dərslərində əlaçı olmaqla yanaşı həm də şahmat kursunda təhsil alır. O, Mübariz İbrahimov adına təşkil olunmuş flaşmobda fəal iştirak etdiyinə görə təşəkkürnamə ilə təltif olunub. Boş vaxtlarında Elay mütaliə edir və əmək fəaliyyətinin sahəsi olan tikişlə məşğul olur. Elayın ailəsi 5 nəfərdən ibartdir. Atası Nurəddin bəy Qarabağ müharibələrində iştirak edib, anası Könül xanım evdar qadındır, qardaş və bacısı isə məktəblidir.

Elayın arzusu təhsilini uğurla tamamlayıb göz həkimi olmaq, xəstələrin qayğısına qalmaqdır. Biz də redaksiyamız adından məktəbli dostumuza bol-bol uğur və parlaq gələcək arzu edirik. Yolun daim açıq olsun...

# Gözəlov İsmayıl





**“Elm bir müharibə meydanını xatırladır. Yaradıcı alimlər ön cəbhədə olur və əsl döyüş də burada gedir. Arxa cəbhədə olanların vəzifəsi öndəkiləri silah-sursat və azuqə ilə təmin etmək, tutulmuş ərazilərdə səliqə-sahman yaratmaqdır”**

***(Əbu Turxan)***

Müasir dünyanın ən vacib parametrlərindən biri təhsildir. Təhsilin əhəmiyyəti gündən-günə artmaqdadır.Əvvəllər təhsildən müəyyən peşəyə yiyələnmək üçün istifadə olunurdu,indi isə təhsilin funksiyası daha çoxdur. Ən böyük funksiyası isə yaşadığımız cəmiyyətlə əlaqə qurmaq,ayaqlaşmaq roludur. İnsanı insan edən ən təməl xüsusiyyətlərdən biri də daim yenilikləri axtarması,öyrənməsidir. Bu hekayəmizin qəhrəmanı yaşadığı cəmiyyəti kəşf edə bilmək üçün daima yeni məlumatlar axtarışında olan Gözəlov İsmayıldır. Gözəlov İsmayıl Nurəddin oğlu 2008-ci il noyabr ayının 16-da Bakı şəhərində anadan olmuşdur. İsmayıl 2014-cü il sentyabr ayının 15-də 32 saylı Ağdam rayon tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. O,hazırda həmin məktəbin 5-ci sinifində təhsil alır. İsmayıl çalışqan,məsuliyyətli və tərbiyəli olduğu üçün müəllimləri və dostları tərəfindən çox sevilir. İsmayıl bütün fənnləri əla qiymətlərə oxuyur və dərslərdə fəal iştirak edir. Dərslərində əlaçı olmaqla yanaşı İsmayıl cüdo idman sahəsi ilə də aktiv şəkildə məşğul olur. Onun bu sahədə keçirilmiş yarışlarda əldə etdiyi 1-ci,2-ci,3-cü yerlər üzrə 9 medalı və 1 kuboku var. Həmçinin o,Neftçi birinciliyini də qazanıb. Boş vaxtlarında İsmayıl kitab oxuyur və idmanla məşğul olur.

İsmayılın ailəsi 5 nəfərdən ibarətdir. Atası Nurəddin bəy Qarabağ döyüşlərində iştirak edib,Qarabağ veteranıdır,anası evdar qadın,bacısı Elay məktəbli,Selcan isə az yaşlıdır.

İsmayılın arzusu təhsilini uğurla başa vurub polis və ya hərbiçi olmaqdır. Biz də redaksiyamız adından İsmayıla bol-bol uğur və parlaq gələcək arzu edirik. Yolun daima açıq olsun.



# Məhəmməd Əhmədli






**“Şagirdlərinə elm arzusu aşılamayan bir müəllim soyuq dəmiri döyən dəmirçi kimidir”**

***(Horas Mann)***

Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillədəndir. Belə ki,bilik insanı güclü və qüdrətli edir. Hər bir insanın həyatda daima irəliyə doğru addım atması üçün təhsil alması vacib şərtdir. Təhsil dedikdə şagirdlərə yalnız kitablardakı bilikləri ötürmək deyil,həmçinin onların düşüncə tərzini inkişaf etdirmək, şagirdlərdə özgüvən yaratmaq, nəyin doğru, nəyin yanlış olduğu haqqında təsəvvürlərin formalaşmasına kömək etmək və s. kimi mənəvi dəyərləri də aşılamaqdır.

Yazımızın bu dəfə ki, qəhrəmanı müəllimlərinin diqqətini çəkməyi bacaran Məhəmməd Əhmədlidir. Məhəmməd 2010-cu ildə may ayının 16-da Lökbatan qəsəbəsində doğulmuşdur. 2017-ci il sentyabr ayının 15-də Bakı şəhər 51 saylı tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. O,hazırda həmin məktəbin 2-ci sinifində təhsil alır. İlk gündən etibarən öz məsuliyyəti,aktivliyi,dərslərinə olan həvəsi ilə seçilən Məhəmməd bütün fənnləri çox sevir. Onun ən sevdiyi müəllimləri Elmira müəllim və Gülbəniz müəllimdir. Dərslərində əlaçı olan Məhəmmədin idman sahəsində də uğur və nəaliyyətləri var. Cüdo idman növü ilə məşğul olan Məhəmməd idman üzrə müxtəlif vaxtlarda keçirilmiş yarışlarda 1-ci, 2-ci, və 3-cü yerləri tutduğuna görə medal və diplomlarla təltif olunmuşdur. Boş vaxtlarında Məhəmməd dərs çalışır və idmanla məşğul olur. Onun ən böyük arzusu təhsilini uğurla başa vurub hərbi həkimi olmaqdır. Məhəmmədin atasının adı Orxan, anasının adı Suradır. Evin tək övladı olduğu üçün ailəsinin həm sevimlisi, həm də sevincidir.

Biz də redaksiyamız adından Məhəmmədə gələcək həyatında bol-bol uğur və parlaq gələcək arzu edirik. Yolunuz daima açıq olsun.

# Nihat Nəsibov



**Bağlı bir qapıya açar axtarsan,**
**Ancaq alimlərdə axtar, tapar-san.**

***(Nizami Gəncəvi)***

Müasir elm və tərəqqi elə bir səviyyəyə gəlib çatmışdır ki, nə orta, nə də ali məktəblər insana həyatının axırına kimi bilik və elm verə bilmir. Məhz buna görə də hər bir insan daim axtarışda olmalı,yeniliklərlə tanış olub,yeni bilik əldə etməlidir.

**Qüvvət elmdədir başqa cür hüç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz.**
**Hər uca zirvədən bilin ki,fəqət**
**Alimin rütbəsi ucadır əlbət.**

Ancaq elm bəşəriyyəti həqiqətə, ədalətə və xoşbəxtliyə apara bilər.

Öyrənilməsi lazım olanlar həddindən artıq çox,insan həyatı isə olduqca qısadır. Buna görə də insan atdığı hər bir addımda yeni biliklər öyrənməyə can atmalıdır. Daima xüsusi bir öyrənmə həvəsi içində olan şagirdlərdən biri də Nihat Nəsibovdur. Nihat Nəsibov İntiqam oğlu 2011-ci ildə sentyabr ayının 17-də Bakı şəhərində anadan olmuşdur. Nihat 2017-ci il sentyabr ayının 15-də Fizuli rayon 1 saylı tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. O,həmin məktəbin 2-ci sinifində təhsil alır. Nihat məsuliyyətli,çalışqan və savadlı olduğu üçün nümunəvi şagirdlər sırasındadır. Nihatın ən sevdiyi fənnlər riyaziyyat və ingilis dili,ən sevdiyi müəllimləri isə Nigar və Şəhla müəllimdir. O, boş vaxtlarından dərs oxumaq üçün səmərəli şəkildə istifadə edir. Nihatın ailəsi 4 nəfərdən ibarətdir. Atası İntiqam bəy- ,anası Ceyran xanım,qardaşı Murad və bacısı İlahə . Nihatın bacısı İlahə və Qardaşı Murad da özü kimi məktəblidir.

Nihatın ən böyük arzusu biznesmen olmaqdır. Biz də redaksiyamız adından məktəbli yoldaşımıza gələcək həyatında bol-bol uğur və parlaq gələcək arzu edirik. Yolun daima açıq olsun...



# CƏFƏROV HÜSEYN



**Əgər mən başqalarından uzaqları görə bilmişəmsə, onda bu, yalnız nəhənglərin çiyinlərində durduğuma görə mümkün olmuşdur.**

***(İSSAK NYUTON)***

Həyatda hər kəs istər ki, müdrik bir insan olsun, doğru- düzgün qərarlar verə bilsin, uzaq görən ola bilsin.Müdrik insan çox bilən adam deyil, biliyi xeyirli olan adamdır.İnsan yaşadığı həyat boyunca daim öyrənməlidir çünki elm dəryadır, o, bitməz və tükənməzdir.Bizim də öyrənməyi qarşısına məqsəd qoyan və bu yolda səylə çalışan şagirdlərimizdən biri də Cəfərov Hüseyndir.

Cəfərov Hüseyn Kamal oğlu 2010-cu ilin iyunun birində Gəncə şəhərində anadan olmuşdur.2016-cı ildə Ağdam Rayon 32 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur.Hal-hazırda həmin məktəbin 3b sinif şagirdidir.Məktəbə başladığı ilk günlərdən dərslərə olan marağı onu elmə, savada gedən yolda ilk addımlarını atmağa məcbur edib. Bu yolda ona həm müəllimləri, həm də kitabları yoldaşlıq edir.Hüseynin ən çox sevdiyi fənn-Azərbaycan dili və ən sevimli müəllimi isə Saray müəllimidir. Oxuduğu illər ərzində hər zaman fəal və əlaçı olan Hüseyn bu nailiyyətlərinə görə müəllimlərinə borclu olduğunu deyir.Onun məqsədi dərslərini yaxşı oxuyub savadlı biri olmaq və ali məktəbə qəbul olub polis peşəsinə yiyələnməkdir.Boş vaxtlarında dərslərini həll edib,idmanla məşğul olan Hüseyn vətəninə,valideynlərinə xeyirli övlad olmaq üçün əlindən gələni etməyi qarşısına məqsəd qoyub.Gələcəkdə polis olub xalqına şərəflə xidmət göstərmək, ədalət uğrunda mübarizə aparmaq onun arzusudur. Hüseynin ailəsi 5 nəfərdən ibarətdir.

Atası- Cəfərov Kamal Fazil oğlu, ev ustasıdır.

Anası-Cəfərova Ülviyyə Qərib qızı, evdar xanımdır.

Bacısı-Cəfərova Zülfiyyə Kamal qızı, 32 saylı Ağdam məktəbinin 4b sinif şagirdidir.Kiçik bacısı isə Cəfərova Aybəniz Kamal qızı,hal-hazırda Qobu qəsəbəsi 1 saylı uşaq bağçasına gedir.

Biz də öz jurnalımız adından Hüseyn balamıza uğurlar arzulayır və gələcəkdə nailiyyətlərinin daha da bol olmasını diləyirik.Yolun hər daim açıq olsun.

# CƏFƏROVA ZÜLFİYYƏ



**"Bütün elmlərin təməli təhsillə qoyulur"**

**(Əbu Turxan)**

Ağıl köhnəlməyən geyim, bilik tükənməyən mədən kimidir. Ağıl təkcə bilikdə yox, həm də biliyi işə tətbiq etmək bacarığındadır.Az bilən və az düşünən çox danışar .Bir insanın biliyi onu çox bəlalardan saxlayar, çünki, bilikli, təhsilli insan öndəki maneələri evvəlcədən görə bilir və onların həlli yolun axtarmağa başlayır.Bunun da müqabilində bir çox problemlərdən uzaq qala bilir. "Cəlaləddin Ruminin belə bir sözü varki, "Ağıllıdan gələn cəfa, cahillərin vəfasından yaxşıdır." Öz agılına, biliyinə, savadına güvənən və bunu daha da irəliyə aparmağa çalışan şagirdlərimizdən biri də Cəfərova Zülfiyyədir.

Cəfərova Zülfiyyə Kamal qızı 2008-ci ildə Gəncə şəhərində anadan olmuşdur.2015-ci il Ağdam rayon 32 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 4b sinif şagirdidir. Zülfiyyə elmə, savada çox marağı olan bir qızdır. Müəllimələri onun haqda çox müsbət fikirlərə sahibdirlər, demək olar ki, ən sevimli şagirdlərindən biri də Zülfiyyədir.Zülfiyyə ona tədris olunan bütün fənləri və fənn müəllimlərini çox sevir. Ən sevdiyi fənn musiqi, ən sevimli müəllimləri isə İradə və Gülşən müəllimdir. Onun arzusu gələcəkdə həkim olmaqdır. Özünün də dediyi kimi, bütün xəstələrə şəfa vermək hər bir həkimin peşə andıdır, vəzifəsidir. Müsahibimiz onu da deyir ki, insan hansı peşənin yiyəsi olursa olsun, ən əsası onu şərəflə və layiqincə yerinə yetirməlidir. O boş vaxtlarını kitab oxumaq və yeni biliklər əldə etməklə dəyərləndirir. Zülfiyyənin ailəsi 5 nəfərdən ibarətdir.

Atası- Cəfərov Kamal Fazil oğlu, malyar ustasıdır.

Anası-Cəfərova Ülviyyə Qərib qızı, evdar xanımdır.

Qardaşı-Cəfərov Hüseyn Kamal oğlu,32 saylı Ağdam məktəbinin 3b sinif şagirdidir.

Kiçik bacısı isə Cəfərova Aybəniz Kamal qızı Qobu qəsəbəsi 1 saylı uşaq bağçasına gedir.

Biz də öz jurnalımız adından Zülfiyyə balamıza bolluca uğurlar arzu edirik və dərslərində nəaliyyətlərinin daha da bol olmasını diləyirik. Yolun açıq, arzuların çin olsun!

# QAZAKOV ƏLİƏKBƏR




**"Elm bir nur, cəhl bir zülmətdir"**

***(Şəbüstəri)***

Müasir inkişaf mərhələsində ictimai həyatda elmin xüsusi çəkisi getdikcə artır. Elm həm məntiqi-epistemoloji struktur kimi, həm də mürəkkəb sosial sistem kimi tədqiqatçıların diqqətini cəlb edir. İndi ictimai həyatın elə bir sahəsi yoxdur ki, burada elmin ən son nəaliyyətlərinə istinad etmədən uğur qazanmaq mümkün olsun. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, indi dünya mədəniyyət dünyasıdır, intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır.

Qazakov Əliəkbər Cəlal oğlu 18 mart 2007-ci ildə Bakı şəhərində anadan olub.2013-cü ildə 99 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Elmə, savada, biliyə marağı olan Əliəkbər elə ilk dərsə başladığı gündən yoldaşlarından fərqlənib və müəllimlərinin sevimlisinə çevrilib. Hal-hazırda həmin məktəbin 6-cı sinif şagirdidir.Məktəbdə çalışqanlığı və tərbiyyəsi ilə müəllimlərinin sevgisini qazanan Əliəkbər valideyinlərinin başını həmişə uca etmişdir.Onun ən sevdiyi fənlər biologiya, fizika, coğrafiya və Azərbaycan dilidir.Əliəkbər deyir ki, o bütün müəllimlərini sevir və onlara xüsusi rəğbət hissi bəsləyir. O, ona elmi, biliyi, təhsili sevdirən müəllimlərinə həmişə borcludur.Əliəkbərin arzusu gələcəkdə alim və rəssam olmaqdır buna görədə qarşısına məqsəd qoymuşdur ki, dərslərini əla qiymətlərlə bitirsin və ali təhsil ocaqlarından birinə qəbul olsun.Və birdə o istəyir ki, keçmişə qayıdan aparat icad etsin.Bütün bu istəkləri isə sırf müəllimlərinin öz peşəsinə nə cür sevgi və hörmətlə yanaşmasından irəli gəlir.Bu məsuliyyətli yolda ona ilk növbədə valideynləri dəstək olur və arzu edirlər ki, Əliəkbər onların əziyyətlərini yetərincə qiymətləndirsin və yüksək nəticə əldə etsin.O da bu yolda əmin addımlarla irəliləyir. Uğur və nəaliyyətlərindən isə dərslərində əlaçı olmaq və rəssamlıq sənəti üzrə fəal çalışmaqdır ki, sonuncudan təşəkkürnamə də alıb. Boş vaxtlarında belə dərslərlə məşğul olur, rəsm çəkir və yeni icadlar haqqında planlar qurur. Onun ailəsi 4 nəfərdən ibarətdir.

Atası- Qazakov Cəlal,1983 -cü ildə Laçında anadan olub. Anası-Məmmədəliyeva Esmira,1988-ci ildə Cəbrayıl rayonunda anadan olub.

Qardaşı-Qazakov Elcan Cəlal oğlu, 2-ci sinif şagirdidir və o da qardaşı Əliəkbər kimi sinifdə təlim-tərbiyəsinin yüksək səviyyədə olmasına görə müəllimlərinin ən sevimli şagirdlərindən biridir.

Biz də öz jurnalımız adından Əliəkbərə həyat yolunda bol -bol uğurlar arzu edirik.Səsin daim ucalardan gəlsin. Yolun hər daim açıq olsun!

# ƏLİZADƏ SAHİB





**Gələcəkdə peşman olmaq istəmirsənsə, öz ailəni təhsildən məhrum etmə!**

***(Aleksandr Sergeyeviç Puşkin).***

"Təhsil millətin gələcəyidir" deyən Heydər Əliyev Azərbaycanda təhsil sahəsinə həmişə diqqət yetirmiş və ona qayğı göstərmişdir. O, bildirmişdir ki, təhsil nə sənaye, nə kənd təsərrüfatı, nə də ticarətdir. İnsanı daim irəli aparan onun savadıdır. Savadsız insan, çıraqsız ev kimidir. Bilik bir gücdür, elm öyrənmək böyük bir zəhmətdir . Bu gücü özündə tapmaq üçün zəhmətə qatlaşan və bu yolda irəliləməyi özünə məqsəd bilən şagirdlərimizdən biri də Əlizadə Sahibdir.

Əlizadə Sahib Həbib oğlu 20 may 2008-ci ildə Bakı şəhərində anadan olub. Bu doğum hədiyyəsi onun ailəsində ikiqat önəmli bir tarixi an olmuşdur.Belə ki, babasının 60 illik yubileyi günü dünyaya göz açan Sahib ailəsinin və sevdiklərinin sevgisini elə ilk andan qazanmağı bacarmışdır. 2014-cü ildə Ağdam rayon 32 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olan Sahib, hal-hazırda həmin məktəbin 5b sinfində təhsil alır. Onun ən sevdiyi fənlər Azərbaycan dili, Azərbaycan tarixi, riyaziyyat və həyat bilgisidir.Ən sevimli müəllimləri isə İradə müəllim, Təranə müəllim, Rəşadət müəllim, Arzu müəllimdir. Elmə, biliyə gedən yolda ona dəstək olan müəllimlərinə öz minnətdarlığını bildirən Sahibin məqsədi daha da yüksək nailiyyətlər əldə etmək, dərslərini yaxşı oxumaq və ali məktəbə qəbul olmaqdır. Gələcəkdə isə arzusu Texnalogiya mühəndisi olaraq yüksək ixtisaslı kadr kimi yetişməkdir. Boş vaxtlarını əlavə tarixi kitablar oxumaqla dəyərləndirən Sahibin ailəsi 5 nəfərdən ibarətdir.

Atası-Əliyev Həbib Sahib oğlu, Ağdam rayon Qızıllı Kəngərli kəndində anadan olub və hal-hazırda usta işləyir.

Anası-Əliyeva Gülçöhrə Rafiq qızı Ağdam rayonunda anadan olub və evdar xanımdır.

Qardaşları-Əlizadə Orxan Həbib oğlu 6b sinif şagirdidir və Əlizadə Yusif Həbib oğlu 10 yanvar 2011-ci ildə anadan olub, hazırda Ağdam rayon 32 saylı tam orta məktəbinin 2b sinif şagirdidir

Bizdə, öz növbəmizdə Sahibə gələcək həyatında uğur arzulayır və nəaliyyətlərinin bol olmasını diləyirik. Vətəninə, millətinə layiqli övlad olsun və səsi daima ucalardan eşidilsin.



# DÖVLƏTOV RƏHİM



"Ancaq elm bəşəriyyəti həqiqətə,ədalətə və xoşbəxtliyə apara bilər" (Emil Zolya )

Öyrənmək gözəlliyin sorağında gəzmək kimidir.Bu gözəlliyi kəşf edə bilmək üçünsə daşlı-kəsəkli yollarda addımlamalı, bir çox çətinliyə sinə gərməlisən.

Təhsil insan həyatının ən vacib amilidir.Bu hər zaman belə olub.Həyatı, baş verən hadisələri öyrənmək, onları düzgün araşdırmaq, çətin vəziyyətdən çıxmaq, vacib olanı düzəltmək, hiyləni başa düşmək, gözəl danışmaq, adamlar arasında sayılıb-seçilmək bütün bunların yolunu yalnız və yalnız elmə qadir olan insan bilər. Kiçik yaşlı Rəhim balamız da, yaşının az olmasına baxmayaraq bunları dərk edir və elmin, savadın dəyərini başa düşür. Bilir ki, təhsilli insanın dünyagörüşü, bacarığı, qabiliyyəti, həyata baxışı hər zaman digərlərindən fərqli olur.Buna görə də o, elm, təhsil yolunda irəliləməyi özünə məqsəd seçib.

Dövlətov Rəhim Rəşid oğlu 10 yanvar 2007-ci ildə Saatlı rayonunda dünyaya göz açmışdır.Dünyaya gəlişi ilə ailəsinə və sevdiklərinə sevinc bəxş edən Rəhim balamız ailəsinin göz nuru olmuşdur. Hər kəsin sevincinə səbəb olan Rəhim balamız 15 sentyabr 2013-ci ildə Saatlı rayonu Tofiq İsmayılov adına tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Rəhim elə ilk gündən müəllimlərinin sevgisini və rəğbətini qazanmışdır. Dərslərinə olan marağı, çalışqanlığı ilə digər yoldaşlarından fərqlənir və bir çox şagirdlərdən fərqli olaraq keçdiyi bütün fənləri sevdiyini və hamısını böyük həvəslə oxuduğunu deyir.Amma aralarında Azərbaycan dili fənnini xüsusi bir maraqla oxuyan Rəhimin ən sevimli müəllimi isə Nuriyev Xalid müəllimdir. O, qarşısına məqsəd qoyub ki, dərslərini yaxşı oxusun və gələcəkdə polis olsun.Ədalət uğrunda daim mübarizə aparsın,xalqına millətinə layiqli vətəndaş kimi qulluq göstərsin. Atası-Dövlətov Rəşid bir oğul atası kimi hər daim onun yanındadır və oğlunun atdığı hər bir addımında, aldığı hər bir qərarında ona arxadır. Bir bacısı və bir qardaşı var. Boş vaxtlarını futbol oynamaqla dəyərləndirən Rəhimin bu sahə üzrə də bir çox nəaliyyətləri var. Onun ən böyük dəstəkçiləri ailəsidir, onlar çalışır ki, Rəhimin verdiyi hər qərarda onun yanında olsunlar və əllərindən gələni ondan əsirgəməsinlər. Arzu edirlər ki, Rəhim universitetə daxil olub və qabaqcıl tələbələrdən olsun. Biz də öz jurnalımız adından balamıza gələcək həyat yolunda bolluca uğurlar diləyir və nəaliyyətlərinin artmasını arzu edirik. Yolun hər daim açıq olsun! Səsin həmişə yüksəklərdən gəlsin.

# DÖVLƏTOVA ZƏHRA



**"Elm vətənin ən uca təcəssümü olmalıdır, çünki xalqlardan hansı biri başqalarını fikir və əqli fəaliyyətdə üstələsə, o, həmişə birinci olacaqdır"**

***L.PASTER***

"Təhsilsiz insan cilasız aynaya bənzər, təhsilli isə öz azadlığını özü təmin edər" deyirlər.Yaxşı təhsil almış övlad yetişdirmək, o övladı hər hansı bir sahədə uğur qazanan biri kimi cəmiyyətin ən ali təbəqələrindən birində görmək hər bir valideynin ən böyük arzusudur.Təbii ki, dövrün və zamanın tələbləri hər bir gəncin təhsilinə öz müsbət və ya mənfi təsirini göstərir.İndi kənardan universitetləri xatırladan müasir məktəblərimiz də var, təhsilin keyfiyyətində ən başlıca amillərdən olan yeni texnalogiyalar da var. Hər şeydən əvvəl, yaradılan bu imkanları layiqincə dəyərləndirən, ölkəmizin, valideynlərin, müəllimlərin əziyyətini boşa verməyən şagirdlərimiz, tələbələrimiz var.Bir sözlə, Azərbaycanın parlaq gələcəyi və parlaq həyat yolu olan gəncləri var.

Onun üçün yaradılan imkanları sözün əsl mənasında qiymətləndirən şagirdlərimizdən biri də Dövlətova Zəhradır.

Dövlətova Zəhra Rəşid qızı 17 dekabr 2009-cu ildə Saatlı rayonunda anadan olmuşdur.2016-cı ildə Saatlı rayon Mircəlal kəndi 2 nömrəli ibtidai məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur.Hal-hazırda həmin məktəbin 3a sinif şagirdi olan Zəhra ilk gündən davranışı, çalışqanlığı ilə bütün müəllimlərinin hörmətini qazanmış və onların sevimlisinə çevrilmişdir.O, bütün fənləri böyük həvəslə oxuyur, ən sevimli fənni isə riyaziyyatdır.Zəhra vurğulayır ki, məktəbə başladığı ilk gündən onun əziyyətini çəkən bütün müəllimlərinə borcludur və hər bir müəllimini ayrıca sevgi ilə sevdiyini deyir.Onun arzusu gələcəkdə həkimlik peşəsinə yiyələnmək və vətəninə, xalqına, valideynlərinə yararlı övlad olmaqdır.Bunun üçün də səylə çalışır.O, bütün xəstələrə şəfa verməyi istəyir.Zəhranın bir çox nəaliyyətləri var, həmçinin də sinif əlaçısıdır və xüsusilə də rəsm və dərslərindəki fəallığına görə bir çox diplomları var.Atası Dövlətov Rəşid də həmişə qızı Zəhranın uğurlarına sevinir.Boş vaxtlarını isə kitab oxumaq və dərslərini hazırlamaqla dəyərləndirən Zəhranın məqsədi ailəsinin və müəllimlərinin fəxri olmaq, onlara layiqli övlad kimi yetişməkdir.Qardaşı Rəhimin və özünün təlim-tərbiyəsi ilə xüsusi şəkildə məşğul olan və həyat yolunda onlara daima arxa-dayaq olan babaları Dövlətov Rəhim, qeyd edir ki, bir baba kimi nəvələri üçün daima əlindən gələnin artığını etməyə hazırdır və edir də.Onların vətənə, millətə yararlı bir vətəndaş olması onu hər daim sevindirər və qürurlandırar.Biz də öz jurnalımız adından Zəhra və Rəhim balamıza ailəsinin, sevənlərinin və müəllimlərinin daim baş ucalığı olmaqlarını diləyirik.Yolunuz daim açıq olsun,səsiniz hər daim ucalardan gəlsin.



# ƏLİZADƏ ORXAN





**Bir elm öyrənmək istədikdə sən,**
**Çalış ki, hər şeyi kamil biləsən.**
**Kamil bir palançı olsa da insan,**
**Yaxşıdır yarımçıq papaqçılıqdan.**

***(Nizami Gəncəvi)***

Hədəf və məqsədi bəlli olan bir elm - sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində, hətta daha sonraları da bir şirin su qaynağı kimi daim ziyarət edilir və xeyirə vəsilə olurlar. Hər bir insanın qədr və qiyməti öyrəndiyi elmin məzmun və zənginliyi ilə ölçülür.

Bhartrihari dediyi kimi : "Elm bölüşüldükcə artan xəzinədir". İnsanın daxili aləmini öyrənmək olduqca çətin və maraqlıdır. İnsan daim kəşf olunmalı bir varlıqdır. Öyrənilən elmdə belə yaşanılan həyatda olduğu kimi məsuliyyətli olmaq lazımdır. Çalışqanlığı, məsuliyyəti və zəhməti ilə əvvəlcə müəllimlərinin sevgisini, daha sonra onu əhatə edən insanların hörmətini qazananlardan biri də Orxan balamızdır.

Əlizadə Orxan Həbib oğlu 20 fevral 2007-ci ildə Bakı şəhərində anadan olub. 2013-cü ildə Ağdam rayon 32 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hazırda həmin məktəbin 6-cı sinif şagirdidir. Dərslərində əlaçı olan Orxan bütün müəlimlərinin sevimlisidir. Onun ən sevdiyi fənn biologiya,ən sevdiyi müəllim isə Jalə müəllimdir. Orxanın məqsədi gələcəkdə ali məktəbə qəbul olmaq və həkimlik peşəsinə yiyələnmək, xalqına layiqli bir övlad kimi xidmət etməkdir. Yaşının kiçik olmasına baxmayaraq dünyaya baxışı, düşüncə tərzi digər yaşıdlarından onu fərqləndirir. Elmə, savada olan marağı onu daima irəli aparır və həyatını möhkəm sütunlar üzərində qurmağa kömək edir.O həm də idmanın cüdo növü ilə məşğul olur və bir çox nəaliyyətləri və diplomları var. Boş vaxtlarını da dərs oxumaqla dəyərləndirən Orxanın ailəsi 5 nəfərdən ibarətdir.

Atası-Əliyev Həbib Sahib oğlu, Ağdam rayon Qızıllı Kəngərli kəndində anadan olub və hal-hazırda usta işləyir.

Anası-Əliyeva Gülçöhrə Rafiq qızı Ağdam rayonunda anadan olub və evdar xanımdır.

Qardaşları-Əlizadə Sahib Həbib oğlu 5b sinif şagirdidir və Əlizadə Yusif Həbib oğlu 10 yanvar 2011-ci ildə anadan olub,hazırda Ağdam rayon 32 saylı tam orta məktəbinin 2b sinif şagirdidir

Biz də öz adımızdan Orxan balamıza uğurlarının daha da bol olmasını diləyirik. Arzuladığı hər bir şeyə nail olmasını istəyirik. Yolun açıq olsun!

# CAVADZADƏ TAMİLLA



Məhəmməd Peyğəmbərimizin belə bir sözü var ki, “Elm öyrənin, çünki, elm öz sahiblərini yaxşını pisdən seçməyə qadir edir.-Behiştin yolunu hamarlayır.Elm çöldə dostumuz, tənhalıqda munisimizdir.Elm köməksizlikdə yoldaşımız, xoşbəxtlikdə doğru yol göstərənimiz, dostlar arasında zinətimiz və düşmənlər arasında Allahımız hesab olunur.”

Elm, savad, bilik insanı həmişə hünər aləmində ucaldır. Təhsil insanın dünyagörüşünü artırır, bildiklərini düzgün istifadəni, bilmədiklərini öyrənməyin yollarını öyrədir.Savadlı şəxsiyyət, vətənə layiq vətəndaş olmaq üçün biz uşaq yaşlarından çalışmalıyıq. Elə lap hər gün böyük həvəslə dərsə gedən, dərslərinə məsuliyyətlə yanaşan Cavadzadə Tamilla kimi.

Cavadzadə Tamilla Natiq qızı 4 iyul 2006-cı ildə Bakı şəhərində anadan olmuşdur. Dünyaya gəlişi ilə ailəsinə böyük xoşbəxtlik, sevinc hissi gətirən Tamilla 2013-cü ildə Ağdam rayon 32 nömrəli tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Məktəbə başladığı ilk günlərdən çalışqanlığı, məsuliyyəti və bacarığı ilə müəllimlərinin diqqətini və hörmətini qazanmışdır.Hal-hazırda həmin məktəbin 6-cı sinif şagirdidir. Boş vaxtlarını kitab oxumaq və riyaziyyatla məşğul olmaqla dəyərləndirən Tamilla sinif əlaçısıdır. Onun ən sevdiyi fənləri riyaziyyat və Azərbaycan dilidir. Sevimli müəllimələri isə Ülviyyə müəllim və Firəngiz müəllimdir.

Tamillanın arzusu gələcəkdə müəllim olmaqdır.O deyir ki, bu şərəfli peşəni ona dəha da sevdirən müəllimləri olmuşdur. Müəllimlərinin öz işlərini düzgün, məsuliyyətlə və xüsusi sevgiylə etmələri onu birazda ruhlandırır və gələcəyin savadlı müəlliməsi olmaq yolunda əmin addımlarla irəliləməsinə təkan yaradır. Boş vaxtlarında həm də rəsm çəkməklə məşğul olan Tamillanın gözəl əl bacarığı var. Onun ailəsi 5 nəfərdən ibarətdir.

Atası-Cavadov Natiq 1977-ci ildə Xocavənd rayonun Tuğ kəndində anadan olub və hazırda Su təmizləmə sistemlərinin mühəndisi işində işləyir. Anası-Fətəliyeva Nərgiz 1980-ci ildə Xocavənd rayonunun Tuğ kəndində anadan olub, hal-hazırda tibb bacısı kimi fəaliyyət göstərir.Bacısı-Cavadzadə Sevinc 10-cu sinif şagirdidir,qardaşı-Cavadzadə Məhəmməd isə 2-ci sinif şagirdidir.

Biz də öz adımızdan Tamilla balamıza uğurlar arzu edirik, diləyirik ki, səsi daima ucalardan gəlsin.Yolun açıq olsun!



# DÖVLƏTZADƏ RAMAL



**Elm adamlarının qiymətini bilməyən, onlara layiq olduqları mükafatı verməyən ölkələr inkişaf edəcəklərinə ümid bəsləməsinlər (Volter).**

İnsanın bildiyi və öyrəndiyi şeylər bilmədiyinin müqabilində heç dərəcəsindədir. Təhsil üçün deyil, təhsil onlar üçündür. Hədəf və məqsədi bəlli olan bir elm - sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində hətta daha sonraları da bir şirin su qaynağı kimi daim ziyarət edilir və xeyrə vəsilə olurlar. Məşhur yunan müdriklərindən biri olan Solonun bu fikri ayrı-ayrı insanlara deyil bütün bəşəriyyətə söylənilən nəsihətlərdən biridir: “Nə qədər ki, yaşayırsan öyrən, gözləmə ki, qocalıq gələndə sənə kamal gətirəcək.”

Həyat yolunda da öyrənməyi, təhsil almağı, bilik qazanmağı seçən şagirdlərimizdən biri də Ramal Dövlətzadədir.

Dövlətzadə Ramal Rəşad oğlu 10 aprel 2011-ci ildə Abşeron rayon Xırdalan qəsəbəsində anadan olmuşdur. 2017-ci ildə Sabunçu rayon Elxan Misirxanov adına 71 nömrəli tam orta məktəbin 1-ci sinfinə getmişdir.Məktəbə qədəm basdığı ilk gündən həm çalışqanlığı və zəkası ilə, həm də təlim-tərbiyəsi ilə müəllimlərinin diqqət mərkəzində olmuşdur. Hal-hazırda həmin məktəbin 2-ci sinfində təhsil alır.Ramalın ən çox sevdiyi fənn riyaziyyatdır. Ən çox sevdiyi müəllimi isə Ülkər müəllimidir. Arzuladığı peşə gələcəkdə polis olmaq və ədalətin keşiyində durmaqdır.Vətəninə, millətinə şərəflə xidmət etməkdir.Ramal həm müəllimlərinin, həm də valideynlərinin fəxri olmağı arzu edir. Boş vaxtlarında dərsləri ilə məşğul olur. İdman üzrə bir çox uğur və nəaliyyətləri olan Ramal həm də əlaçıdır və diplomla təltif olunmuşdur.Onun ailəsi, xüsusilə də atası-Dövlətov Rəşad Rəhim oğlu bir ata kimi hər zaman oğluna arxa-dayaq durur və onun gələcək həyat yolunda çətinliksiz irəliləməsi üçün əlindən gələni edir.Evin tək göz nuru olan Ramala biz də öz jurnalımız adından uğurlarının bol olmasını diləyirik və ailəsinin, valideynlərinin əziyyətini daim qiymətləndirib onların başını uca tutmasını arzulayırıq.Yolun açıq olsun!

# ŞƏRİFOVA GÜNEL







Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nəaliyyətlərinə əsaslanır.

Kiminsə həyatı boyu uşaq kimi qalmayıb, ciddi, ağıllı biri olsa dünyanın çox işinə yarayar və yaxşı vətəndaş ola bilər, amma dahi ola bilməz. Əgər, siz uşaqlıqda dəcəllik hissini öldürsəniz heç vaxt müdrik insan yetişdirə bilməzsiniz.

Uşaqlıq həyatın ən mühüm, ən ayrılmaz, ən unudulmaz hissəsidir.Onu ən yaxşı şəkildə yaşamaq lazımdır. Çünki uşaqlığın hər anını böyüyəndə əzbərdən xatırlayırıq. Bu səbəbə görə də hər bir valideyn kimi Güneli də ailəsi göz nuru kimi böyüdür. Onun hər istəyini ailəsi özü üçün məqsəd olaraq qəbul edir.

Şərifova Günel Eldəniz qızı 14 mart 2010-cu ildə İmişli rayonunda anadan olmuşdur. 2016-cı ildə Ağdam rayon 32 nömrəli tam orta məktəbin 1ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. O, dərslərinə çox böyük həvəslə yanaşır. Boş zamanlarında mütaliə etməyi çox sevir.Bütün fənləri və o fənləri ona öyrədən və sevdirən müəllimlərini sevən Günelin, riyaziyyat fənnini xüsusi maraqla oxuyur və Saray müəlliminə isə bir ayrı məhəbbət bəsləyir.Günelin məqsədi gələcəkdə həkim olmaq və insanlara kömək etməkdir.O deyir ki, insan hansı peşənin yiyəsi olur- olsun əsas odu ki, öz peşəni şərəfli və ədalətli bir şəkildə icra edəsən.Yaşı az da olsa, düşüncələri çox geniş qızdır. Günelin ailəsi 3 nəfərdən ibarətdir. Anası, atası və özü. Ailənin tək övladı olduğuna görə ona ayrı bir nəvaziş və qayğı ilə yanaşırlar və təlim-tərbiyəsi ilə məşğul olurlar.Valideynləri çalışır ki, cəmiyyətə xeyirli bir vətəndaş kimi Güneli yetişdirsinlər.Atası-Şərifov Eldəniz Əli oğlu,1974-cü il 13 dekabrda anadan olub,anası-Şərifova Fatma Məhyəddin qızı,1974-cü il 21 iyunda anadan olub.

Biz də Günelə orta məktəbi müvəffəqiyyətlə bitirib ali təhsil ocaqlarından birinə qəbul olmağı və gələcəkdə valideynlərinə, vətəninə və millətinə layiqli övlad kimi yetişməyi arzu edirik.Yolun açıq olsun!



# CAVADZADƏ MƏHƏMMƏD



Təhsil millətin gələcəyidir.Mən dünyada müəllimdən yüksək ad tanımıram ifadəsi də hamımıza əzbərdən məlumdur. Çünki təhsil müəllimin daşıdığı müqəddəs bir missiyadır.

Bizim hər birimiz elmi dərəcəmizdən,biliyimizdən,təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nəaliyyətlərimizə görə məktəbə,müəllimə borclu- yuq.Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcə-yə hazırlamaqdır.Hər bir insan gərək, eyni zamanda vətəndaş olsun. Mütləq yaxşı vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqı- na sadiq vətəndaş olsun. Cavadzadə Məhəmməd Natiq oğlu da belə oğullardan olmaq üçün çalışır. O, 25 fevral 2011-ci ildə Bakı şəhərində anadan olub.2016-cı il Ağdam rayon 32 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Elmə, savada, biliyə marağı olan Məhəmməd elə ilk dərsə başladığı gündən yoldaşlarından fərqlənib və müəllimlərinin sevimlisinə çevrilmişdir.Hal-hazırda həmin məktəbin 2a sinif şagirdidir.Məktəb də çalışqanlığı və tərbiyəsi ilə müəllimlərinin sevgisini qazanan Məhəmməd valideynlərinin başını həmişə uca etmişdir.Onun ən sevdiyi fənn Azərbaycan dilidir.Məhəmməd deyir ki, o bütün müəllimlərini sevir lakin ən sevimli müəllimi isə Günel müəllimdir. O, ona elmi, biliyi, təhsili sevdirən müəllimlərinə həmişə borclu olduğunu deyir.Məhəmmədin arzusu gələcəkdə polis peşəsinə yiyələnməkdir, buna görədə qarşısına məqsəd qoymuşdur ki, dərslərini əla qiymətlərlə bitirsin və ali təhsil ocaqlarından birinə qəbul olsun.Bu məsuliyyətli yolda ona ilk növbədə valideynləri dəstək olur və arzu edirlər ki, Məhəmməd onların əziyyətlərini yetərincə qiymətləndirsin və yüksək nəticə əldə etsin.Məhəmməd də valideynlərinin dəstəyi ilə bu yolda əmin addımlarla irəliləyir.Boş vaxtlarında belə dərslərlə məşğul olan Məhəmmədin idmana xüsusi marağı var, əsasəndə, futbola və king boks idman növünə. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası-Cavadov Natiq 1977-ci ildə Xocavənd rayonun Tuğ kəndində anadan olub və hazırda Su təmizləmə sistemlərinin mühəndisi işində işləyir. Anası-Fətəliyeva Nərgiz 1980-ci ildə Xocavənd rayonunun Tuğ kəndində anadan olub, hal-hazırda tibb bacısı kimi fəaliyyət göstərir.Bacıları- Cavadzadə Sevinc 15 mart 2003-cü ildə anadan olub və Cavadzadə Tamilla 4 iyul 2006-cı ildə anadan olub.Sevinc hazırda 10-cu sinif şagirdidir, Tamilla isə 6-cı sinif şagirdidir.

Biz də öz jurnalımız adından Məhəmmədə həyat yolunda bol -bol uğurlar arzu edirik.Səsin daim ucalardan gəlsin. Yolun hər daim açıq olsun!

# MİRKAMAL MİRVİDADİ



**Dünyada nə qədər kitab var belə**
**Çalışıb, əlləşib gətirdim ələ.**
**Oxudum, oxudum, sonra da vardım,**
**Hər gizli xəznədən bir dürr çıxardım.**
**(NİZAMİ GƏNCƏVİ)**

Həyatda insan bir çox amal uğrunda çalışır .Lakin, bir çox şeyi əldə etmək üçün öncəlik təhsildə, elmdə, bilikdə olmalıdır.Çünki, bütün amala, istəyə gedən yolda yolumuzu aydınladan bizim savadımız, elmimiz və dünyagörüşümüz olur.Öz məqsədlərinə çatmaq üçün özünə yol yoldaşı olaraq biliyi, savadı,elmi seçən şagirdlərimizdən biri də Mirkamal Mirvidadidir.

Mirkamal Mirvidadi Nizami oğlu 12 mart 2010-cu ildə Bakı şəhərində anadan olmuşdur.2016-ci ildə Şuşa şəhər 1 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur.Dünyaya gəlişi ilə ailəsinə xoşbəxtlik gətirən Mirvidadi hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Mirvidadi sinif əlaçılarından biridir.O demək olar ki, ona tədris olunan bütün fənlərini sevir və xüsusi bir həvəslə oxuyur. Ona bütün fənləri sevdirən ilk növbədə müəllimləri olmuşdur, həm də valideynlərinin böyük əziyyəti olmuşdur ki, Mirvidadinin elmə, təhsilə, savada gedən yolunda ən böyük dəstəkçilərindən bir və birincisi də elə valideynləridir. O, oxuduğu müddət ərzində əlaçı olmuş və daima müəllimlərinin əziyyətini dəyərləndirən şagirdlərindən olmaq üçün çalışmışdır.Mirvidadi gələcəkdə savadlı bir kadr olmaq üçün boş vaxtlarını da kitab oxumaqla dəyərləndirir və mütaliəni sevdiyini deyir. Onun ən böyük arzularından biri də təhsilini gələcəkdə xaricdə davam etdirməkdir və xüsusilə də Almaniyada. Bir çox uğur və nəaliyyətləri olan Mirvidadi əlaçı olması ilə yanaşı həm də şahmatla məşğul olur və şahmat üzrə 4-cü dərəcə əldə etmişdir-



.O, bunu gələcək həyatında daha da irəliyə aparmaq istəyir və uğurlarının artması üçün çalışır. Boş vaxtlarınıda şahmat oynamaqla keçirən Mirvidadinin ailəsi 4 nəfərdən ibarətdir.

Atası-Mirkamal Nizami Vidadi oğlu, anası-Mirkamal Nigar Yaşar qızı, qardaşı-Mirkamal Mirəli Nizami oğlu, 6 yaşı var və hələ ki, məktəbə getmir. Bizdə öz jurnalımız adından Mirvidadi balamızı uğurlarına görə təbrik edir, gələcək həyatında nəaliyyətlərinin artmasını diləyirik.Daim ailənin başını uca etmək diləyi ilə.Yolun açıq olsun.



# HÜSEYNLİ VİDADİ





**“Açılan hər məktəb bir həbsxananın bağlanması deməkdir”(Viktor Hüqo).**

Elm öyrənən insan həyatda həmişə yaxşını pisdən seçməyə qadirdir. Elm çöldə dostumuz, tənhalıqda munisimizdir. Savadlı insan həmişə sənəd və hünər əldə edib yaxşı ad qazanmağa, özündən sonra gələcək nəsillərə xeyirli bir iz qoymağa çalışmalıdır. Elm ağlın çırağıdır. İnsanın əsl üstünlüyüdür. Təhsil alan hər bir kəs özünün həyatda həmişə bir addım öndə olduğunu bilir.Təhsili, biliyi, savadı onun üçün çox vaxt bağlı qapıların açarı olur. Elm sanki bir müharibə meydanını xatırladır. Yaradıcı alimlər ön cəbhədə olur və əsl döyüşdə burada gedir. Savadlı insanla söhbət hər hansı bir yaxşı kitabı oxumaq qədər dəyərlidir. Elm, təhsil, savad, bilik yolunda irəliləməyə çalışan şagirdlərimizdən biri də Hüseynli Vidadidir.

Hüseynli Vidadi Elvin oğlu 30 dekabr 2008-ci ildə Bakı şəhərində anadan olub. 2015-ci ildə Bakı şəhəri 51 nömrəli tam orta məktəbin birinci sinfinə getmişdir. Vidadi məktəbə başladığı ilk vaxtlardan dərslərindəki fəallığına görə digər şagirdlərdən seçilirdi. Hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Oxuduğu illər ərzində dərslərində əlaçı olmuş və müəllimlərinin sevgisini qazanmışdır.Hal-hazırda da sinif əlaçısıdır.Elə məktəbə qədəm qoyduğu ilk gündən dərslərə olan marağı, istedadı onu savad qazanmaq yoluna bağlanmışdır. Vidadinin bir çox uğur və nəaliyyətləri ilə yanaşı,şahmat üzrə 5-ci, 4-cü və 3-cü dərəcələri var və hazırda 2-ci dərəcə üçün çalışır. Onun ən çox sevdiyi fənlər riyaziyyat, ingilis dili və rus dilidir, ən çox sevdiyi müəllimləri isə Səkinə müəllim və Gülbəniz müəllimdir.Onun gələcəkdə uğur qazanmaq istədiyi peşələr hərbiçilik və bərbər peşəsidir.Vidadi vətəninə,xalqına öz şərəfi və ədaləti ilə xidmət göstərmək istəyir.Bu yolda isə onun ən böyük dəstəkçiləri müəllimləri və valideynləridir.O savad qazanmaq yolunda özünə kitabları yoldaş kimi seçmişdir.Vidadi gələcəkdə böyük uğurlara imza atmaq istəyir və yaxın müddət ərzində futbol yarışlarına qatılıb uğurlarını daha da artırmaq üçün çalışacaq. Onun ailəsi 5 nəfərdən ibarətdir.

Atası-Hüseynov Elvin Könül oğlu, 27 may 1983-cü idə Ermənistan respublikası, Mehri rayonunda anadan olub və hazırda “ Lor ” hospitalda mühafizəçi işləyir.Anası-Hüseynli Ramilə Vidadi qızı, 7 iyun 1984-cü ildə Ermənistan respublikası, Mehri rayonunda anadan olub və hazırda evdar xanımdır.Bacıları-Hüseynli Fatimə Elvin qızı, 12 fevral 2012-ci ildə Bakı şəhərində anadan olub və 1-ci sinifdə oxuyur, Hüseynli Aişə Elvin qızı, 18 oktyabr 2014-cü ildə Bakı şəhərində anadan olub və hazırda bağça yaşındadır.

Bizdə öz redaksiyamız adından Vidadiyə uğurlar arzulayırıq.Müəllimlərinin və valideynlərinin fəxri olmağını diləyirik.Hər daim səsi yüksəklərdən gəlsin.Yolun açıq olsun!

# HƏSƏNOV YAQUB






**Elm adamlarının qiymətini bilməyən, onlara layiq olduqları mükafatı verməyən ölkələr inkişaf edəcəklərinə ümid bəsləməsinlər**

***(Volter).***

Biliyin, elmin insan həyatında tutduğu yerin məna və əhəmiyyəti haqqında hələ XII əsrin dahi şairi N. Gəncəvi yazırdı:

Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz.

Biz elmi-texniki tərəqqinin çox vüsət alıb tüğyan etdiyi bir əsrdə yaşayırıq. Bu belə bir əsrdir ki, cəmiyyətimizin onun iqtisadi, mədəni, mənəvi inkişafı elm və biliklə xarakterizə olunur.

Həyat yolunda da öyrənməyi, təhsil almağı, bilik qazanmağı seçən şagirdlərimizdən biri də Həsənov Yaqubdur.

Həsənov Yaqub Cəbrayıl oğlu 4 fevral 2006-cı ildə Bakı şəhəri Qaradağ rayon Lökbatan qəsəbəsində anadan olmuşdur. 2013-cü ildə Ağdam rayonu 32 nömrəli tam orta məktəbin 1-ci sinfinə getmişdir.Məktəbə qədəm basdığı ilk gündən həm çalışqanlığı və zəkası ilə, həm də təlim-tərbiyəsi ilə müəllimlərinin diqqət mərkəzində olmuşdur. Hal-hazırda həmin məktəbin 6b sinifində təhsil alır.Yaqubun ən çox sevdiyi fənn ədəbiyyat, ən çox sevdiyi fənn müəllimi isə Firəngiz müəllimdir. Arzuladığı peşə gələcəkdə idmançı olmaqdır.Vətəninə, millətinə şərəflə xidmət etməkdir.Yaqub həm müəllimlərinin, həm də valideynlərinin fəxri olmağı arzu edir. Boş vaxtlarında idmanla məşğul olmağı sevən Yaqubun bir çox uğur və nəaliyyətləri var.Onun toplamda 11 qızıl və 1 gümüş medalı var və bütün bunlar onun "MMA" (qaydasız döyüş) idman növü üzrə yarışlardan əldə etdiyi nəaliyyətləridir.İştirak etdiyi yarışlar həm rayonlar üzrə təşkil olunan yarışlardır,həm də Azərbaycan birinciliyi üzrə keçirilən yarışlardır.Yaqubun ailəsi 5 nəfərdən ibarətdir.

Atası-Həsənov Cəbrayıl Yaqub oğlu 7 noyabr 1971-ci ildə Ağdam rayonunda anadan olmuşdur,anası-Həsənova Yeganə Əli qızı, 16 may 1982-ci ildə Ağdam rayonunda anadan olub, qardaşı-Həsənov Raqub Cəbrayıl oğlu, 6 fevral 2009-cu ildə anadan olub, bacısı-Həsənova Aysun Cəbrayıl qızı, 2010-cu ildə anadan olub.

Bizdə öz jurnalımız adından Yaquba uğurlarının daha da bol olmasını diləyirik.Valideynlərinin və üzərində əziyyəti olan hər kəsin daim fəxri və sevinci olasan.Səsin hər daim yüksəklərdən gəlsin.Yolun açıq olsun!



# Mədinə Kərimova







**"Elmdə irəli gedib mənəviyyatda geridə qalan insan son nəticədə irəli yox, geriyə gedir" (Aristotel)**

Bilənlərlə bilməyənlər heç vaxt eyni olmaz. Yalnız ağıl sahibləri həyatdan ibrət alır və öyrənir. Öyrəndiklərini isə za-



manla bilməyənlərə öyrədir. Yəni öyrənmək bir məharətdirsə, öyrətmək aqil şəxsin əməlidir. Hər kəs insan ola bilər, amma aqil ola bilərmi? Xeyr sualın cavabı birmənalıdır. Aqil və Arif insan ömrünü oxumaqla, öyrənməklə, nəticə çıxartmaq və ibrət götürməklə keçinən şəxsdir. Elm və təhsil almaq da insanı müdrükləşdirir, aqilləşdirir. Ona görə insan övladı elmi beşikdən qəbrədək öyrənmək məcburiyyətindədir. Dinimiz də elmə təşviq edir və elmə yol göstərir. Çünki bilik hadisələrin geniş dünyagörüşü ilə dəyərləndirilməsinə və həll yolları tapmağa imkan verir. Belə imkandan öz bilik və istedadı gələcəkdə yararlanmaq istəyən əlaçı balaca məktəblilərimizdən biri də Mədinə Kərimovadır. Yaşı az, amma gələcəyi nikbin görünən bu balaca məktəbli ilə bu yazıdan tanış ola bilərsiz.

Kərimova Mədinə Xəqani qızı 2012-ci il avqustun 20-də Bakıda anadan olub. Ötən il balaca Mədinə 71 saylı tam orta məktəbin birinci sinfinə getməklə təhsil həyatına start verib. Hazırda həmin məktəbin 1ç sinif şagirdidir. Baxmayaraq hələ birincidir, amma elə dərslərində də birincilərdəndir, yəni əlaçıdır. İndidən dərslərini həvəslə öyrənməyə çalışan Mədinənin ən sevdiyi fənn ana dili, riyaziyyat, ən sevdiyi müəllim isə Nisa müəllimdir. Gündəlik dərsləri ilə yanaşı həvəskar rəsm çəkməklə də məşğul olur. Mədinə Kərimova yaxşı oxuyub gələcəkdə savadlı pediatr olmaq istəyir. O uşaq həkimi olmaqla özü kimi balaca fidanlara gələcəkdə şəfa verməklə yardımçı olmaq niyyətindədir. Onun bu uşaq qəlbi ilə böyük arzular qurması valideynlərini




də qürurlandırır və onlar da ona gələcəyini qurmaqda yardımçı olacaqlarını bildirirlər. Atası Kərimov Xəqani ali təhsilli inşaatçı, anası Günel Umudova isə tibb bacısıdır. Qardaşı Kərimov Məhəmməd də 5-ci sinif şagirdidir. O da dərslərində əlaçıdır.

Redaksiyamız adından biz də balaca və gözəl Mədinəyə böyük uğurlar və parlaq gələcək arzulayırıq. Elm, təhsil yolu ilə gedənlər heç zaman uduzmazlar, əksinə həyatın ən doğru qərarını vermiş olurlar. Elə Mədinə də bu məqsədlə həyatının doğru qərarını verməklə həyat yoluna davam etməkdə olsun, uğurlar da onu izləməkdə.

# Məhəmməd Kərimov




Bilik - insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında məlumat toplusu. Bilik mühəndisliyi baxımından bilik formallaşdırılmış informasiyadır. Bilik praktiki fəaliyyət və peşəkar təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub (prinsipləri, əlaqələri, qanunları), həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir.

Məhəmməd Kərimov Xəqani oğlu 21 iyul 2008-ci ildə Bakı şəhəri Sabunçu rayonunda anadan olmuşdur. O 2014-cü ildə 71 saylı tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Məhəmməd hal-hazırda elə həmin məktəbin 5-ci sinif şagirdidir. Məhəmməd sinifdə ən qabaqcıl və çalışqan şagirdlərdən biridir. O bütün fənnləri sevərək dərk edir. Məktəbə gəldiyi ilk gündən müəllimlərin rəğbətini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllimə Nisa müəllimə, Solmaz müəllimə və Kəmalə müəllimədir. Məhəmmədin arzuları çoxdur. O, ilk öncə valideynlərinə, müəllimlərinə layiqli övlad olmaq arzusundadır. Onun bir çox uğurları vardır. Məhəmməd məktəb üzrə keçirilən sınaqlarda Turandan 2-ci yer, Zirvədən isə 3-cü yeri tutmuşdur. O, asudə vaxtlarını dəyərləndirir. Boş lahiyələr üzrə işləyir. Valideynlərinin fəxri olan Məhəmməd balamızın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Kərimov Xəqani, inşaatçıdır. Xəqani bəy Məhəmməd balamızın gələcəyi üçün əlindən gələni əsirgəmir. Məhəmməd atasını çox sevdiyini bildirir.

Anası Umudova Günel, tibb bacısıdır.

Bacısı Kərimova Mədinə, məktəblidir, 1-ci sinif şagirdidir.

Məhəmməd balamızın arzusu gələcəkdə hərbiçi olmaqdır. Biz də öz redaksiyamız adından Məhəmməd balamıza bol-bol uğur və müvəffəqiyyətlər arzu edirik. Yolun hər zaman açıq olsun!



# Rüstəmli Jalə







**"Alim bank xəzinədarına oxşayır: onun əlində böyük xəzinələrin açarı var, amma bu xəzinələr onun deyil"**

***(L.Berne)***

"Elm adamlarının qədrini bilməyən və onların layiq olduğu mükafatı verməyən ölkələr inkişaf edəcəklərini zənn etməsinlər"

Bu məşhur ifadənin müəllifi olan Volter məlum fikri ilə böyük bir həqiqətin izinə işıq salmaqla sanki əsrimizin dünyasında çatışmazlığın bütün gerçəklərini hədəfə alıb. Çünki elm ağlın çırağıdır. Ağlını işıqlandırmaqla gələcəyini daha parlaq edən şəxslər həm də zamanla dünyamızın dühasına, aliminə çevrilirlər. Elm həm də o qədər qəlizdir ki, ancaq xoş niyyətli insanların əlində fayda verə bilər. Onu qavramaq və dərk etmək üçün gərək insan təhsilli olsun. Çünki bütün elmlərin bünövrəsi təhsillə qoyulur. Güclü təhsil sistemi güclü gələcək, güclü iqtisadiyyata və sağlam inkişaf modelinə məxsus ölkə formalaşdırır. Hazırda bu modeldən dünyanın inkişaf etmiş əskər ölkələri faydalanmaq la öz müsbət bəhrəsini görür. Dünyanı istəyən də, axirəti istəyən də gərək elmə sarılsın. Çünki nicat elmdə, təhsilli gələcəkdədir. Elm idealar dramıdır. Bu dramın qəhrəmanı olmaq istəyən ildən-ilə artmaqda və yüksək təhsilin arxasınca qaçmaqdadır. Eləcə də bizim ölkənin orta ümumtəhsil ocaqlarında elmə maraq göstərən gənclər son illər dünyada texnoloji bilginin güclənməsi ilə əlaqədar xaricə yollanmaqla yüksək təhsil alıb öz sahələrinin peşəkarı olmağa səy göstərirlər, hətta bunu bacarırlar. Belə əmin yolda inamla uğurla addımlayan qəhrəmanlarımızdan biri də Rüstəmli Jalə Rəcəb qızıdır.

Rüstəmli Jalə Rəcəb qızı 2006-cı ilin avqustun 4 də Naxçıvan şəhərində doğulub. Xankəndi şəhəri Nizami Gəncəvi adına 4 saylı tam orta məktəbin birinci sinfinə 2012- cilin tədris ilindən daxil olan Jalə hazırda həmin məktəbin 7 -ci sinif şagirdidir. Xüsusi istedad və bacarığa malik Jalə ilk gündən sinifdə seçilməyi və fərqlənməyi bacarıb. Dərslərinin əlaçısıdır, istedad və bilgisinə görə isə dəfələrlə diplom və fəxri fərmanlara layiq görülüb. Bütün dərslərini əla oxuyan Jalə üçün humanitar sahəyə aid Azərbaycan və ingilis dili, tarix, coğrafiya və ədəbiyyat xüsusi rəğbət sevdiyi fənnlərdir. Ən sevdiyi müəllimləri isə Cəmilə, Aydan, Aytən , Elnur və Şəmail müəllimdir. Artıq indidən gələcəkdə hansı peşənin arxasınca gedəcəyini də seçim edən Jalə üçün ingilis dili üzrə tərcüməçi olmaq ən böyük arzudur. Asudə vaxtında isə mütaliə edir və maraqlı əl işləri hazırlayır. Ailəsi 4 nəfərdən ibarətdir. Atası Rüstəmov Rəcəb Nazim oğlu və anası Rüstəmova Rübabə Mənaf qızıdır. Rüstəmova Leyla Rəcəb qızı adında birinci sinifdə oxuyan bacısı var. Ailəsinin də sevimlisi olan Jaləyə biz də redaksiyamız adından uğurlar arzulayır, gələcək həyatının parlaq və uğurlu olmasını diləyirik. Seçdiyi elm yolu qoy onun yeniyetmə ömür yolunu işıqlandırıb ancaq xoş günlər və başarılar qismət etsin.

# Hüseynzada Vüsal





**Bütün nemətlərin başlanğıcı və son həddi ağıldır.**

***Epikür***

Zaman dayanmır. Onun axarında cəmiyyətin də, insanların da həyatı dəyişir. Bugün gözlərimiz qarşısında böyüyən məsum körpələr qısa zaman kəsiyində cəmiyyətdə özünə layiqli mövqe tutur. Tanınır, sevilir, onunla qürur duyulur, xeyirxah işlərindən danışılır. Hüseynzadə Vüsal da xeyirxah əməllərlə böyüyən övladlarımızdandır.

Vüsal Vüqar oğlu Hüseynzadə 17 sentyabr 2004-cü ildə Ağdam rayonunda anadan olmuşdur. 2010-cu ildə 71 saylı məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Hal-hazırda isə həmin məktəbin 8-ci sinif şagirdidir. Vüsal bütün dərslərini sevir və hər zaman hazırlıqlı olur. Lakin fizika, ədəbiyyat və riyaziyat fənlərinə daha çox önəm verir. Onun ən sevimli müəllimi isə Aliyə müəllimdir. Vüsal gələcəkdə həkim olmaq arzusundadır. O, insanlara yardım edərək, onları pulsuz müayinə etmək, dərdlərinə dərman olmaq istəyir. Bununla yanaşı incəsənətdə də xüsusi istedada malik olan Vüsal balamız, müxtəlif teatr tamaşalarında iştirak edərək, fərqli və maraqlı obrazları canlandırıb. Atası Vüqar bəy, anası Mehriban xanım, qardaşı Valeh və bacısı Afət bilirirlər ki, Vüsalın seçimi hər nə olursa olsun, hər zaman onun yanındadırlar. İnşallah, vaxt gələcək, onun xeyirxah əməllərindən nəinki respublikamızda, hətta bütün dünyada söhbət açılacaq, əsl vətən oğlu kimi onunla qürur duyulacaq!

# Əzimli Xətai



**Bilik və bacarıq, insanın bütün məziyyətlərini əks etdirən iki dayaqdır.**

***Baltasar Qrasian***

Elm ucu - bucağı görünməyən bir dəryadır. İnsan bu dəryanı qolları arasına alıb əhatə edə bilməz. Lakin hissə - hissə araşdıra, kəşf edə bilər. Odur ki, hər bir kəs uşaq yaşlarından öz həyatında ona lazım olan və qabiliyyəti imkan verən qədər o dəryadan istifadə etməlidir. Bu dəryadan əlindən gəldiyi qədər istifadə etməyə çalışanlardan biri də Xətaidir.

Əzimli Xətai Xanoğlan oğlu 7 iyun 2003 - cü ildə anadan olmuşdur. O, 2009 - cu ildən etibarən Füzuli rayon, Karadirşəh kənd 1 saylı tam orta məktəbinin 1 - ci sinfində təhsil almağa başlamışdır. Sevdiyi fənlər ingilis və rus dilləridir. Ən sevdiyi müəllimi isə Rüxsarə müəllimdir. Xətainin ən böyük arzusu həkim olmaqdır. O, həkim olaraq xəstələri sağaltmaq, imkansızları pulsuz müalicə etmək istəyir. Boş vaxtlarında dostları ilə birlikdə şahmat oynamaq onun ən xoşladığı məşğuliyyətlərindən biridir. Xətainin ailə üzvləri də hər zaman onun yanında olub, dəstək olurlar.

Biz çox sevinirik ki,Azərbaycanın bu cür övladları var. Həmçinin ümid edirik ki, Xətai adına layiq bir vətən oğlu olacaqdır.






2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazılar ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:

Telefon nömrələri:
(070) 077 988 82 83   077 632 22 86 WhatsApp   012 408 91 92

Mail: tehsil_news@mail.ru
Facebook: Tehsil Yenilikleri   İnstagram: tehsil_yenilikleri   Youtube: Təhsil Yenilikləri

# ÇAĞDAŞ TƏHSİL

Xüsusi buraxılış Fevral 2019-cu il (13)









# EUROHOME

***Müasir dam örtükləri***

Hər növ polimer örtükləri, yeni dam örtüklərinin sifarişi

RUUKKI

**İtalya, Koreya, Çin, Türkiyyə, Ukrayna və bütün dövlətlərin mallarının satışı.**
**Burada hər növ dam örtükləri topdan və pərakəndə satışı olur.**






---

**Ünvan: Xırdalan şossesi, Ekologiya postu ilə üzbəüz**
**EVROHOME mağaza N103**
**Dükanıbn sahibi: Seymur Orucov**
**Tel: (+994 51) 600-02-07**



Təsisçi:
Vüsal Kəlbəcərli

Baş redaktor:
Ülvi Musayev

Redaksiya heyyəti:
Cavid Qurbanov
Qənbər Qurbanov

"Çağdaş Təhsil"
qəzetinin
Xüsusi buraxılış

Ünvan: Azərbaycan
Respublikası
Bakı şəhəri, Mətbuat
prospekti
529-cu məhəllə
"Azərbaycan nəşriyyatı"
2-ci mərtəbə

Jurnal Redaksiyanın
kompüter mərkəzində
yığılıb, səhifələnib,
çap olunmuşdur.

Tiraj - 500

Tel: 077-632-22-92
050-770-21-97
055-334-99-86
012-408-91-92
077-632-22-86
050-877-71-86